The Project is funded by the European Union

EUROEAST CULTURE
RMCB Unit

*Qeyri-rəsmi tərcümə*

**Şərq Tərəfdaşlığının Mədəniyyət Proqramı**
**Regional Monitorinq və Bacarığın Artırılması Heyəti**
**(RMBAH)**

**EuropeAid Müqaviləsi Nömrə 2010/255-219**

# AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT SEKTORU VƏ MƏDƏNİYYƏT SİYASƏTİ HAQQINDA İLKİN ANALİTİK HESABAT

**Şərq Tərəfdaşlığı Ölkələrinin Mədəniyyət Siyasətləri üzərində**
**Tədqiqatlar və Diaqnozlar**

Bu Hesabat Şərq Tərəfdaşlığı Mədəniyyət Proqramının Regional Monitorinq və Bacarığın Artırılması Heyəti tərəfindən hazırlanmışdır:

*Cb. Terry Sandell, RMBAH Mütəxəssisi*
*Cb. Cahangr Səlimxanov, RMBAH Mütəxəssisi*
*Cb. Lüçano Qloor, RMBAH Heyət Başçısı*
*Xm. Tetiana Biletska, RMBAH Bacarığın Artırılması Mütəxəssisi*

Avqust 2012
(yenidən işlənilmişdir: Yanvar 2013)

Bu hesabat Avropa Birliyinin yardımı ilə yaradılmışdır. Bu hesabatın məzmunu təkcə Şərq Tərəfdaşlığı Mədəniyyət Proqramının Regional Monitorinq və Bacarığın Artırılması Heyətinin məsuliyyətidir. Bu hesabat ona töhfə vermiş mütəxəssislərin rəylərini əks etdirir və heç bir halda Avropa Komissiyasının baxışlarını əks etdirmir.

RMBAH Layihəsi, Beynəlxalq İşbirliyi üçün Alman Cəmiyyətinin (Deutsche Gesellschaft für Internationale Zusammenarbeit - GIZ) HYDEA S.p.A. (İtaliya) və RWTH Aachen University (Almaniya) tərəfindən həyata keçirilir.

## Mündəricat


Qısaltmalar siyahısı ... 3
Minnətdarlıq ... 4
Müqəddimə ... 5
1. Şərq Tərəfdaşlığı Ölkələrində Mədəniyyətin Vəziyyəti haqqında Məlumat ... 7
2. Azərbaycanda Mədəniyyət və Mədəni İnkişafın Bəzi Əsas Xüsusiyyətləri ... 10
3. Araşdırma Tədqiqatı ... 12
3.1. Kontekst / Mühit ... 12
3.1.1. Mədəniyyətə təsiri olan qanunvericilik, vergi, qeydiyyat və məşğulluğ məsələləri. Bu məsələlərin mədəniyyəti və yaradcılığı dəstəkləməsi dərəcəsi ... 12
3.1.2. Şəffaflıq və Korrupsiya ... 13
3.1.3. Rəsmi və İctimai İnformasiyanın Təchizatı və Yayımlanması ... 13
3.1.4. Mədəniyyət Siyasətinin digər Siyasətlər və Strategiyalara İnteqrasiyası ... 14
3.1.5. Təcrübədə Hesabatlılıq və Açıqlıq ... 15
3.1.6. Mədəniyyət Sektorunun Töhfəsi ... 15
3.1.7. Müstəqil və QHT Sektorlarının Rolu ... 16
3.1.8. Özəl və Ticarət Sektorlarının Rolu ... 16
3.1.9. Mədəniyyətdə və Mədəniyyət Məsələlərində Milli Adi və Elektron Media və buna məxsus Nəşrlərin Maraqları ... 17
3.1.10. Mədəniyyətə, Mədəniyyətin Qorunmasının və Mədəniyyətə Əlçatımlılıqa aid olan Şəhər-Kənd Fərqi ... 18
3.1.11. Dil Məsələləri ... 19
3.2. Yaradıcılıq/İstehsalat və Qorunma/Bərpa ... 19
3.2.1. Ölkənin mədəniyyət siyasətində və təcrübəsində (məsələn, maliyyələşdirmədə) müasir mədəniyyət yaradıcılığına verilən nisbi əhəmiyyət ... 19
3.2.2. Müxtəlif növ mədəni və incəsənət yaradıcılığının/istehsalatının baş verdiyi mühitin təsviri ... 20
3.2.3. Yaradıcılıq ... 20
3.2.4. İrs ... 21
3.2.5. Bərpa Resursları və Gücü ... 21
3.2.6. Mədəni İfadə Müxtəlifliyinin Qorunması və Dəstəklənməsi haqqında UNESCO Sazişi ... 22
3.3. Mədəni Təminat/Araşdırma/Peşəkar Treninq və Bacarığın Ötürülməsi/Yayım/Bağlantı/Rəqəmsallaşdırma ... 22
3.3.1. Ümumi Mühit ... 22
3.3.2. Peşəkar Treninq ... 23
3.3.3. İnternet İstifadəsi və Bağlantı ... 23
3.3.4. Rəqəmsallaşdırma Layihələri ... 24
3.4. Keçid alınması və Təhsil ... 24
3.4.1. Giriş ... 24
3.4.2. Təhsil ... 25
3.5. İştirak və Auditoriya Təlimi ... 25
3.5.1. İştirak Statistikası ... 25
3.5.2. Auditoriya İnkişafı ... 25
4. Ölkəyə edilən RMBAH Araşdrma Səfərinin Əsas Nəticələri ... 27
Mənbələr Siyahısı ... 30
Çap/elektron nəşrləri ... 30
Veb-səhifələr ... 31
Əlavə 1. Azərbaycan Mədəni Fəaliyyət Sahələrinin Prioritet Ehtiyacları və Mədəniyyət Siyasətinin Dövlət Tərəfdaşları tərəfindən SWOT Qiymətləndirmə ... 32
Əlavə 2. Bioqrafik Məlumat – Azərbaycan Tarixi Kontekstdə ... 33

## Qısaltmalar siyahısı

| | |
|---|---|
| **AZN** | Azərbaycan manatı (milli valyuta vahidi) |
| **İlkin Hesabat** | altı Şərq Tərəfdaşlığı Ölkələrinin mədəniyyət sektoru və mədəniyyət siyasətləri haqqında ilkin analitik hesabatlar |
| **BA** | Bacarığın Artırılması |
| **CCC** | *Creating Cultural Capital* Avropa Şurasının bələdçi layihəsi |
| **CIDA** | Yaradıcılıq Sənayelərinin İnkişafı Agentliyi, Birləşmiş Krallıqlar (Creative Industries Development Agency, UK) |
| **MDB** | Müstəqil Dövlətlər Birliyi |
| **ŞəT** | Şərq Tərəfdaşlığı |
| **ŞəT ölkələri** | Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Moldova, Ukrayna |
| **ŞəT regionu** | Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Moldova, Ukrayna |
| **AŞ** | Avropa Şurası |
| **AQSA** | Avropa Qonşuluq Siyasəti Aləti |
| **AB** | Avropa Birliyi |
| **DYŞ** | Daxili Yer-dəyişmiş Şəxs (məcburi köçkün) |
| **Regional Araşdırma Hesabatı** | Şərq Tərəfdaşlığı Ölkələrinin Mədəniyyət Siyasətləri və Trendləri haqqında Regional Araşdırma Hesabatı |
| **İSMHBS** | İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Saziş |
| **ISESCO** | İslam Təhsili, Elmi və Mədəniyyəti Təşkilatı |
| **Üzv Ölkələr** | Avropa Birliyinə Üzv Ölkələr |
| **MəN** | ŞəT-ə aid olan Mədəniyyət Nazirliyi (Mədəniyyətə cavabdeh Nazirlik) |
| **MəTN** | Mədəniyyət və Turizm Nazirliyi |
| **AMEA** | Azərbaycan Milli Elmlər Akademiyası |
| **İKT** | İslam Konfransı Təşkilatı |
| **OSIAF** | Açıq Cəmiyyət İnstitutunun Yardım Fondu |
| **Proqram** | Şərq Tərəfdaşlığının Mədəniyyət Proqramı |
| **Layihə** | Şərq Tərəfdaşlığı Mədəniyyət Proqramının Regional Monitorinq və Bacarığın Artırılması Heyəti |
| **Xülasə** | Avropa Şurasının Avropada Mədəniyyət Siyasətlərinin və Trendlərinin Xülasəsi |
| **RMBAH** | Şərq Tərəfdaşlığı Mədəniyyət Proqramının Regional Monitorinq və Bacarığın Artırılması Heyəti |
| **Mühazirə** | Mühazirə/təqdimat formatı əsasında bacarığın artırılması/treninqi |
| **SWOT** | SWOT Analizi (Strengths, Weaknesses, Opportunities, Threats / Güclü və Zəif tərəflər, İmkanlar, Təhlükələr) |
| **Seminar** | İnteraktiv və dəlil/layihə əlaqəli qrup işi formatı əsasında bacarığın artırılması/treninqi |
| **Ehtiyaclar Qiymətləndirilməsi 2008** | 2008 Sentyabrda AŞ-a təqdim edilmiş Ehtiyaclar Qiymətləndirilməsi ENPI Şərq Regional Mədəniyyət Əməkdaşlığının dəstəklənməsi haqqında hesabat (Müqavilə Nömrə 2007/146264) |

## Minnətdarlıq

Şərq Tərəfdaşlığı Mədəniyyət Proqramının Regional Monitorinq və Bacarığın Artırılması Heyəti AB-nin Azərbaycandakı nümayəndə heyətinə, xüsusilə Əməliyyatlar Şöbəsinin Başçısı Cb. Federiko Bernaya onun dəyirmi masa müzakirəsində iştirakına görə və Beynəlxalq Yardım və Əməkdaşlıq Başçısı Cb. Rza Zülfüqarzadəyə onun, diaqnozlar və tədqiqatlar prosesinə start verən araşdırma səfərinin təşkilində dəstəyinə görə öz minnətdarlığını bildirmək istəyir. RMBA Heyəti həmçinin Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinə, Beynəlxalq Əlaqələr və Mədəniyyət Proqramları Şöbəsinin müdiri Cb. Vasif Eyvazzadəyə, onun dəyirmi masa müzakirəsinin, müsahibələrin və yerlərə ziyarətlərin hazırlanmasında, həmçinin, hesabat üçün məlumatın toplanılmasında məharətli yardımına görə şəxsən təşəkkür edir.

Nəhayət, RMBA Heyəti öz minnətdarlığını bütün ŞəT Mədəniyyət Proqramındakı əsas milli tərəfdaşların nümayəndələri ilə genişləndirmək istəyir: milli hakimiyyət orqanlarına və xüsusilə Mədəniyyət və Turizm Nazirliyinə; ölkədə fəal olan özəl sektorun nümayəndələri, peşəkar birliklər və vətəndaş cəmiyyəti, həmçinin müstəqil mədəniyyət fəalları və donor institutlar, bu hesabatın hazırlanmasında etdikləri qiymətsiz yatırımlarına görə:

Fərid Abdullayev, Alina Abdullayeva, Elbəy Əli, Fərəh Əliyeva, Çingiz Babayev, Rizvan Bayramov, Qurban Bünyatov, Leyla Dostəlizadə, Mahir Qəhrəmanov, Namiq Qulamov, Anar Quliyev, Rafael Gülməmmədli, Yaşar Hüseynli, Elnur Hüseynov, Raziyə İsayeva, Könül Cəfərova, Nəriman Məmmədov, Qulyana Məmmədova, Fuad Məmmədov, Tariyel Məmmədov, Hüseyn Mehdiyev, Əminə Məlikova, Elmir Mirzəyev, Rüstəm Mustafayev, Rüfət Nuriyev, Nailə Rəhimova, Maisə Nurbala qızı Rəhimova, Nazim Səmədov, Yusif Şeyxov, Röya Tağıyeva, Asif Usubəlıyev, Əzizə Vəzir-Seyidova və bir çox başqaları.

## Müqəddimə

Bu hesabatın məzmunu tək Şərq Tərəfdaşlığı Mədəniyyət Proqramının Regional Monitorinq və Bacarığın Artırılması Heyətinin məsuliyyətidir. Bu hesabat töhfə verən mütəxəssislərin rəylərini əks etdirir. Hesabat Avropa Komissiyasının baxışlarını əks etdirmək üçün deyildir.

Hesabat Avropa Birliyi və Şərq Tərəfdaşlığı ölkələrindəki bütün mədəniyyət tərəfdaşları daxil olmaqla geniş miqyaslı auditoriya üçün nəzərdə tutulub. Hesabat 2011-ci ilin oktyabr ayından 2012-ci ilin mart ayınadək Şərq Tərəfdaşlığı Mədəniyyət Proqramının Regional Monitorinq və Bacarığın Artırılması Heyəti tərəfindən altı Şərq Tərəfdaşlıq ölkələri - Azərbaycan, Belarus, Gürcüstan, Ermənistan, Moldova və Ukraynada həyata keçirilən *Şərq Tərəfdaşlığı Ölkələrinin Mədəniyyət Siyasətləri üzərində Tədqiqat və Müayinələrin* nəticəsidir. Tədqiqatların diqqəti Azərbaycan, Belarus, Gürcüstan, Ermənistan, Moldova və Ukraynanın milli mədəniyyət siyasətləri üzərində cəmlənmişdir və əməli baxımdan bütövlükdə Şərq Tərəfdaşlığı Mədəniyyət Proqramının və Regional Monitorinq və Bacarığın Artırılması Heyətinin (RMBAH) bütün fəaliyyəti üçün strateji bələdçiliyin təmin edilməsinə meyllidir.

Araşdırmanın nəticələri aşağıdakıları əhatə edərək "ətraflı hesabat" formasında təqdim edilmişdir:

- altı ölkənin hər biri üçün *Mədəniyyət Sektoru və Mədəniyyət Siyasəti haqqında İlkin Analitik Hesabatlar;*
- bütün altı ölkəni əhatə edən və onların 2015 Martadək olan dövrdəki mədəni fəaliyyət sahələrində prioritet sahələri təyin edən *Şərq Tərəfdaşlığı Ölkələrinin Mədəniyyət Siyasətləri və Trendləri haqqında Regional Araşdırma Hesabatı.*

RMBAH tərəfindən tərtib edilmiş ölkənin İlkin Hesabatı əlavə təhlil, müzakirə və mübadiləyə meylli mövzudur. Altı ölkənin İlkin Hesabatları hər ölkənin mədəniyyət sektorunda hazırkı vəziyyəti əhatə edərək gələcək inkişafını və ümumilikdə ŞəT Mədəniyyət Proqramındakı inkişafı müşahidə edilməsini asanlaşdıracaq. Bu hesabatlar, beynəlxalq standartlar və təcrübəyə qarşı mövcud olan ölkə xarakterli siyasətlərin və təcrübələrin təhlilinə əsaslanırlar. Biz mədəniyyət sektorunda dəyişiklik və inkişafın qiymətləndirmək üçün Şərq Tərəfdaşlığı Mədəniyyət Proqramı gedişatında ara-sıra eyni göstəricilərdən istifadə edəcəyik. Ümid edirik ki, Şərq Tərəfdaşlığı ölkələrindəki orqanlar üçün bu göstəricilər və ölkə hesabatları onların, uyğun ölkə səviyyəsində mədəniyyət sektorunda dəyişiklikləri qiymətləndirə biləcək alətləri olacaq.

Altı İlkin Hesabat tam işlənilməmiş mərhələdə ŞəT ölkələrinin dövlət orqanları və digər tərəfdaşlarına paylanmışdır və Regional Hesabatın əsas nəticələri 2012-ci ilin sentyabrında Brüsseldə keçirilmiş Şərq Tərəfdaşlığı Mədəniyyət Siyasəti ilə bağlı Mütəxəssis Seminarında (Platform 4) və 2012 Oktyabrda Tiflisdə keçirilmiş Şərq Tərəfdaşlığı Mədəniyyət Proqramının Birinci Konfransında təqdim edilmişdir. Səlahiyyətli dövlət orqanlarının nümayəndələri, tamamlayıcı məlumatlarla töhfə vermək yaxud şərhləndirmək üçün dəvət olunmuşdurlar. İlkin Hesabatların bəziləri 2012-ci il sentyabr – noyabr aylarında dövlət nümayəndələrinin məlumatlarına əsasən yenilənmişdir.

Altı İlkin Hesabat ingilis dilində və aidiyyəti olan ölkələrin dillərində, həmçinin Regional Araşdırma Hesabatı ingilis və rus dillərində, səlahiyyətli dövlət orqanlarının RMBAH-a ünvanlanmış töhfələri ilə birgə Proqramın internet səhifəsində (www.euroeastculture.eu) elektron şəkildə açıqlanmışdır. Mədəniyyət işlərində marağı olan bütün tərəfdaşlar hesabatlara öz münasibət ifadəsi və şərhləri ilə töhfə vermək üçün Proqramın internet səhifəsindən dialoq üçün platforma kimi istifadə etməyə dəvətlidirlər.

Elə təxmin edilirdi ki, mədəni sektorun ənənəvi tənzimlənməsi, misalçün, sub-sektorlara bölünməklə, ŞəT Proqramı üçün ən uyğun yanaşma olmazdı, çünki praktiki nəticələri nəzər mərkəzinə qoyulmasına ehtiyac duyulmaqdadır. Bu nəticələr və yekun məhsullar ŞəT ölkələrində mədəniyyət/incəsənət formalarından daha çox demokratikləşmə, modernləşmə və islahat kimi sahələrdə töhfəyə aid edildiyinə görə bu araşdırma aşağıdakı beş sahə üzərində fokuslaşır:

- Hər bir ölkənin mədəniyyət konteksti/ab-havası;
- Yaradıcılıq və istehsalat;
- Mədəniyyətin təminatı, ötürülməsi və yayılması.
- Mədəniyyətə aid olan məsələlərə müyəssərlik;
- Mədəniyyətdə iştirak.

Bu bölgüdə şərtsiz nəzərdə tutulanlar demokratikləşmə və modernləşmə suallarıdır; mədəniyyətə və mədəni istehsalata olan müsbət ab-hava dərəcəsinə nail olunmuşdur - yaxud olunmamışdır; mədəniyyət sistemində "açıqlıq" hüdudu; ölkələrin mədəniyyətə təsir edən hazırki inqilabi inkişafdan, rəqəmsallaşdırma, internet və mədəniyyətin necə "istehlak olduğu"ndan bəhrənməkdə nisbi bacarığı; mədəniyyət istehsalçıları və istehlakçılarının bir-biri ilə eyni sistem daxilində hansı tərzdə münasibət qurduqları; nəhayət, inkişafa, bacarıq-artırmaya və treninqə istinadən, bu elementlərin əsnasında hansı ehtiyaclar ola bilər.

Avropa Komissiyasının regional siyasət kontekstində və Şərq Tərəfdaşlığı Mədəniyyət Proqramında iştirak edən müvafiq ölkələrin hazırkı trendləri haqqında, həmçinin tədqiqatlara tətbiq edilən analitik meyarlar, mədəniyyətlə bağlı siyasətlərin Avropa və beynəlxalq standartlarının təyini mənbələri və araşdırmanın iş proseduralarını və əsas elementlərin təyini üçün tətbiq edilən metodlar haqqında daha çox məlumat Regional Araşdırma Hesabatında tapıla bilər.

Tədqiqatlar, 2011-ci il noyabr - dekabr aylarında Regional Monitorinq və Bacarığın Artırılması Heyətinin Şərq Tərəfdaşlığı ölkələrinə altı araşdırma səfəri ilə başlamışdır. Azərbaycana edilən səfərin nəticələri bu hesabatın 4-cü Bölməsində təqdim edilmişdir. Qeyd etmək lazımdır ki, *Araşdırma Tədqiqatı* (3-cü bölmə) geniş regional ŞəT konteksti çərçivəsində ölkə səviyyəsində mədəni fəaliyyət sahəsindəki vəziyyət haqqında xülasəni və beynəlxalq standart və meyarlarla müqayisənin üzərində təqdim etdiyi halda, RMBAH-ın *Ölkəyə Araşdırma Səfərinin Əsas Nəticələrinin* (4-cü bölmə) analitik yekunu və xüsusilə *Yerli Tərəfdaşlar tərəfindən Mədəniyyət Sektorunun Prioritet Ehtiyacları və Mədəniyyət Siyasətinin SWOT Qiymətləndirilməsi* (1-ci Əlavə) Proqramdakı geniş çeşidli yerli tərəfdaşların baxışlarını əks etdirir. *Yerli Tərəfdaşlar tərəfindən Mədəniyyət Sektorunun Prioritet Ehtiyacları və Mədəniyyət Siyasətinin SWOT Qiymətləndirilməsinə* töhvə verən iştirakçı sayının, analitik araşdırmanın elmi etibarlılığına kifayət etmədiyindən, SWOT Qiymətləndirilməsi, yalnız məlumat xarakteri daşıyaraq hesabata əlavə edilmişdir. Hərçənd qeyd edilməlidir ki, SWOT Qiymətləndirilməsi nəticələri təhlil nəticələri ilə uyğundur.

Bölmə 3: ölkə hesabatlarının *Araşdırma Tədqiqatı* həqiqi dəlillərə və nəşr olunmuş mənbələr əsasında tapıntıları cəmləmək niyyətindədir. Sorğudakı suallara cavablar həmişə ətraflı olmayıb, bununla belə biz çalışmışıq ki, altı hesabat arasında bağlılığın bütövlüyünü qorumaq üçün sorğu hesabatının əlaqəli bölmələrini olduğu kimi saxlayaq. Dəlil olmadığında hesabatlar ümumiyyətlə *"Məlumat tapılmadı"ğını* ("*No data/information found")* bildirir, halbuki bəzən təxminlərə müraciət etməyə ehtiyac olub. Bu cür halların sayı minimumda saxlanılıb. Bəzi başqa hallarda, axtarış zamanı məlumat araşdırmanın cədvəli üzrə toplanılmadığında hesabat *"Məlumat toplanmadı"ğını* ("*No data/information collected*") bildirir. Gələcəkdə lazım olan məlumatın daha da asanlıqla ələ gələcəyinə ümid edilir və gözlənilir.

Bu hesabata RMBAH heyət başçısı Cb. Lüçano Qloor və RMBAH Bacarığın Artırılması Mütəxəssisi Xm. Tetiana Biletska tərəfindən rəhbərlik edilmişdir. Xm. T. Biletska həmçinin əməkdaş ölkələrdə araşdırma səfərləri nəticələrinin təhlili və toplanması və yeddi hesabatın sonda birləşdirilməsi və redaktəsi də daxil olmaqla, tədqiqatlar və müayinələrin faktiki tətbiqinin bütün mərhələlərinə cavabdeh idi.

RMBAH Mütəxəssisi Cb. Terri Sandell iştirakçı ölkələrdə mədəniyyət sektorunun status analizi üçün bir sistemin inkişafı, onun analitik kateqoriyaları və göstəriciləri, həmçinin ölkənin hesabatlarına əsaslanan analitik araşdırmanın strukturlaşdırılması, digər Mütəxəssislərə təlimatlar və ölkə hesabatlarının 1-3 Bölmələri və 2-ci əlavədə redaktə və onların tərtib edilməsi daxil olmaqla tədqiqatları metodoloji bələdçi ilə təchiz etmişdir.

RMBAH Mütəxəssisi Cb. Cahangir Səlimxanov 3-cü Bölmədə təqdim edilən analitik araşdırma tədqiqatının hazırlanmasına, statistik və təsviri məlumatların toplanmasına və standartların və meyarların müqayisəli analizinin həyata keçirilməsinə cavabdeh idi.

Hesabat, onun metodologiyası və işi ilə bağlı ətraflı məlumat üçün lütfən,
RMBAH Bacarığın Artırılması Mütəxəssisi Xm. Tetiana Biletska ilə tetiana.biletska@euroeastculture.eu
RMBAH Heyət Başçısı Cb. Lüçano Qloor ilə luciano.gloor@euroeastculture.eu elektron ünvanlarında əlaqə saxlayın.

# 1. Şərq Tərəfdaşlığı Ölkələrində Mədəniyyətin Vəziyyəti haqqında Məlumat

Bu ölkə hesabatına əlavə ayrıca regional hesabat, fərdi ölkələri kontekstə sığışdırır və Şərq Tərəfdaşlığı regionu daxilində ümumi müzakirə məsələləri və geniş tendensiyaları təsvir edir. Azərbaycana aid araşdırmadan nəyin əldə edilməsinə çalışılması və götürülmüş yanaşmanı kiçik bir kontekstdə vermək hər halda faydalı olacaq.

Müstəqillikdən əldə etdikdən etibarən altı Şərq Tərəfdaşlığı ölkələri nəhəng çətinliklər və problemlərlə üzləşməli olublar. Bir çox Avropa ölkələrindəki kimi, mədəniyyətin vacib sayıldıqı halda belə, siyasi reallıqlar adətən mədəniyyətin maliyyələşməsinə üstünlük vermədiklərini bildirir. Azərbaycan və digər ölkələr üçün bu hal mədəniyyət sahəsində geniş düşüncəli, gələcək baxışlı planlardan daha tez-tez əlacsız, reaktiv, qısa-müddətli mübarizədə özübü biruzə verir. Keçmişə yapışaraq, bacardığını qorumağa çalışaraq, sistemlərin və proseslərin işləməsinə çalışaraq bir gün hər şeyin yaxşı olacağı ümidi ilə bunun keçilməli olduğu təbii yol olduğuna ümid edərək onlar sadəcə kompromisə girir çünki, onlar prosesin baş verdiyi yerdə (həmçinin bunlardan yaxından məlumatlı) yeganə olanlardılar. Sual, "daha yaxşının, yaxşıya alternativ olması" məsələsinin "pisin, ən pisdən bir az yaxşı olması" məsələsindən daha müşkül olmasındadır. Hazırkı durum bəlli olmayan durumdan daha az təhlükəli olub.

Mədəniyyət və mədəniyyətin inkişafı vakuumda irəliləyə bilmir və bütün Şərq Tərəfdaşlığı ölkələrinin ətraf mühiti, yuxarıda qeyd edilən iqtisadiyyat və maliyyələşdirmə cəhətlərindən fərqli olaraq, ümumilikdə müsbət dəyişikliyə və inkişafa səbəb olmayıb. Sovet dönəmindən miras qalmış linqvistik, demoqrafik, ərazi və etnik siyasət kimi mədəniyyətə birbaşa təsir edən irsdən əldə edilmiş siyasi problemlər və çətinliklər, mədəniyyət sahəsində davamlı dinc inkişaf qarşısına nəhəng narahatçılqlar və məhdudiyyətlər qoymuşdur. Misal üçün, mədəniyyət siyasəti tərtib edərkən, müxtəliflik, altı ölkənin ən azı beşində bütövlükdə nəzərə alınmalı olan həddindən artıq vacib amildir. Müxtəliflik rahatlıqla mədəni səadət ola bilər, amma müəyyən vəziyyətlərdə bu təəssüf ki, siyasi bir lənət də ola bilər. Münaqişə, gərginlik, etibarın çatışmaması, aldatma və tarixin ədalətsizliyi bu ölkələrdə müsbət dəyişikliyə böyük çətinliklər törədib və bu dəyişiklikləri ləngidib.

Əlavə olaraq cəmiyyətə və onun dəyərlərinə, dəyişkənliyinə zərər vuran və bəzən hətta gələcəyə inamın itməsinə səbəb olan zəif institusional infrastruktur, korrupsiya da daxil olmaqla bu ölkələrin hamısında saysız-hesabsız digər çətinliklər olub. Bu keçmişin qarşılığında Mədəniyyət Naziri olmaq, və ya Mədəniyyət və Mədəni İrs Komitəsi Parlamentinin Sədri olmaq, yaxud Mədəniyyət üzrə Prezident Məsləhətçisi olmaq güman ki, çarpışan artist, muzey kuratoru, yaxud kitabxanaçı olmaq kimi əsəbi olub.

Hərçənd təzəlikcə, nə qədər ki, mədəniyyət, mədəniyyət siyasəti və mədəni inkişaf haqqında narahat olunmağa başlanılıb, regionda bu sahədə tumurcuqlar əmələ gəlməyə başlayıb. Keçmişlə müqayisədə görmək olar ki, hamının istədiyi miqyasda və sürətdə də olmasa, doğrudan da irəliləyiş edilib.

Xüsusilə keçən onillikdə görmək olar ki, misalçün, öz yeni dövlətçiliyinə uyğun olan tanınan beynəlxalq standartlara doğru gedən bir yolu addımlayan ölkələrin əsasən gənc insanları müasirləşmənin faydalarını, rabitələrin və rəqəmsal çevrilişin təklif etdiyi yeni cəlbedici imkanları - beynəlmiləlçiliyi və qloballaşmanı, çoxsaylı eyniliklərin araşdırılmasını və şəxsi özünü-aktuallaşdırmasını və mədəniyyətin və yaradıcılığın payını və rolunu, müasir anlamda, sosial, iqtisadi və humanitar gündəlikləri və milli, regional və fərdi inkişafı tanımağa başlayırlar.

Azərbaycanın müasirləşməsi, yeni standartlar və beynəlxalq öhdəliyi istiqamətində yolunda UNESCO-ya qoşulması (1993), Avropa Mədəniyyət Sazişini təsdiqləməyi (1994), Avropa Şurasına üzvlüyü (1995), Milli Azlıqların Mühafizəsi haqqında Avropa Şurasının Çərçivə Sazişini təsdiqləməyi (1996), Regional və Azlıqların Dilləri haqqında Nizamnamənin təsdiqləməyi (2002), UNESCO Dünya Mədəniyyət və Təbii İrsinin Qorunması haqqında Razılaşmanı təsdiqləməyi (2002), UNESCO Mədəniyyət İfadələrinin Müxtəlifliyinin Qorunması və İnkişaf etdirilməsi haqqıda Sazişini təsdiqləməyi (2006), UNESCO Qeyri-maddi Mədəniyyət İrsinin Qorunması haqqında Sazişı təsdiqləməyi (2006), həmçinin Avropa Şurasının MOSAIC, STAGE və "Kyiv Initiative" Proqrammları kimi beynəlxalq, Avropa və regional proqramlarda iştirakı daxildir.

Azərbaycanın Şərq Tərəfdaşlığı Proqramına cəlb olunması Azərbaycanla yanaşı digər Şərq Tərəfdaşlığı ölkələri üçün kollektiv və fərdi olaraq vacib öhdəlikdir ki, Avropa Birliyi və ona üzv ölkələr üçün potensial olaraq yerinə yetiriləcək sonuncu mərhələdir. Bu öhdəlik Azərbaycan və regiondakı digər tərəfdaş ölkələri

üçün vacib bir vaxtda baş verir, çünki, mədəniyyət sektorunun qeydinə qalmaqla yanaşı, bu ölkələr həm tunelin sonunda hamıya məlum olan işığı və baş qaldıran yaşıl tumurcuqları görməyə başlayır, hətta baxmayaraq ki, həm mədəniyyət arenasının özündə, həm də mədəniyyət inkişafının hərəkət etdiyi, yaşamağa davam etdiyi, yaxud inkişaf etdiyi geniş siyasi, iqtisadi mühitdə çətinliklər hələ də mövcuddur. Azərbaycanın vəziyyətində, onun iqtisadi irəliləyişi, xüsusilə keçən onillik ərzində mədəniyyətin inkişafına və infrastrukturuna investisiyaya qoyduğu çox aydın öhdəlik onu bildirir ki, ölkə, digər ölkələrdən daha az sıxıntı keçirir.

İqtisadiyyatda özünə inam Azərbaycanın təkcə mədəniyyət üçün alicənablıqla resurslar müsaid etməsi deyil, həm də özünün iyerarxik siyasi idarəetməsi ilə iqtisadi gücün birləşməsi, mədəniyyət sahəsində də olmaqla, uzunmüddətli strateji planların təkmilləşdirilməsinə imkan yaratmışdır. Paytaxtda fiziki infrastrukturu, həmçinin son bir neçə ildə Azərbaycanın dünya səviyyəsində özünü məharətlə mədəni yolların kəsişdiyi bir mövqedə yerləşdirməsini nəzərə almaqla, bu hal ən diqqətəlayiqdir. Sonuncu məqama aid olan odur ki, ölkə güclü identifikasiyanı istifadə edə bilən uğurlu bir strategiyanı təqib etməklə - Türk, İslam və Avropalı - özünü, Avropa və İslam dünyası arasında və diplomatik mədəniyyətlərarası dialoqun icraçılığı daxil olmaqla mədəniyyətlərin kəsişdiyi bir mövqedə yerləşdirir. İddialı mədəniyyət inkişafı üçün öz resurslarından istifadəyə digər bir misal 2011-ci ildən fəaliyyət göstərən, tamamilə mədəniyyətə həsr edilmiş televiziya kanalının yayımlanmasıdır.

Təkcə Azərbaycana aid olan yaşıl tumurcuqlar geniş marağa layiqdir və baxmayaraq ki, resursların mövcudluğu təsdiqlənib, ola bilər regionda daha geniş faydası vardır. Ümid edilir ki, bu araşdırma və Şərq Tərəfdaşlığı Mədəniyyət Proqramı, Azərbaycanın təcrübəsi və yeni baş qaldıran "yaşıl tumurcuqları" ilə digər beş ölkəni həm regional, həm də geniş Avropa mədəniyyət öhdəliyində, ümumi, hərtərəfli, ikitərəfli və fərdi təşəbbüslər səviyyəsində irəlilədərək birləşdirə bilər.

Bu həqiqətən də araşdırmanın nəyə nail olmağa və hansı mövqe seçməyinə çalışdığını diqqət mərkəzinə alır. Yaşıl tumurcuqlar, kultivasiya, becərmə ideyası, toxum səpmək, mədəni inkişafdan və mədəniyyətdən danışıldıqda müvafiq adi bağçılıq metaforlarından daha böyük məna kəsb edir. Həqiqətən də mədəniyyət və bağçılıq terminologiyası əziyyətsiz və birbaşa birindən o birinə və əksinə tərcümə edilir: "kultivasiya" və "becərmə", "müxtəliflik" (bioloji/mədəni), "mühit", "orqanik inkişaf", "münbit yer" və s. Araşdırma tədqiqatı bu bağçılıq metaforlarını, regionda və ölkələrdə mədəniyyətin hansı mühitdə yetişdirilməsi və böyüməsini tədqiq etmək üçün sözsüz tətbiq edir. Bu, mədəniyyətin inkişafını ləngidə bilən və maliyyələşdirmədə əhəmiyyət kəsb edən həmişə çətinlik törədə biləcək faktorların ümumi əsasını müəyyən etməyə çalışır.

Vacib təkmilləşdirmə həmişə edilə bilər və bu həmişə büdcədən asılı deyil, adətən sadəcə bilikdən, rəhbərlikdən, sistemin təkmilləşdirilməsindən, eksperimentlərdən, yaxud yeni yanaşmalardan asılıdr. Muzey, yaxud kitabxana kimi sahələrdə modernləşdirmənin müəyyən aspektləri məsələn, müştəriyə meylli xidmətlərdir və müştəriyə qayğı göstərmək üçün əməkdaşların münasibətləri və anlayışları üzərində görüləcək iş, büdcədə görüləcək iş qədər ola bilər.

Kimsə gənc, yaxud qoca bir ölkənin, nə Şərq Tərəfdaşlığının hələ də erkən müstəqillik dövründəki çağdaş "yeniyetmələri" yetkinləşdirməyini, nə yetkin və hərdən AB-nın "qoca" üzv ölkələrini indiki iqtisadi və maliyyə tərəqqisi dövründə mədəniyyət üçün həmişə artan büdcələri sığortalamasını, nə hər incəsənət xadimini və əhəmiyyətli mədəni təşəbbüsü dəstəkləməsini, nə də onların öz cəmiyyətlərinin mədəni kreativliyi və mürəkkəbliyini tamamilə anlamasını uma bilməz. Hərçənd kimsə Avropa identifikasiyasını dəyərləndirən ölkələrin hamısından bir şey gözləyə bilər, o da araşdırmaya təkan və gələcək üçün nəzərdə tutulan gözləntilərdir; 19-cu əsrin Fransız, Alman, Azərbaycanlı, yaxud başqa bir bağbançısının hələ də nəyin necə becərilməsini bilməsidir. Odur ki, mədəniyyət və mədəni inkişafa qayğı və diqqət göstərilən yerdə, onlar mühiti necə nəzərə almağı, hava şəraitinə uyğun işləri görməyi, bəsləməyi, amma lazım olmadığında müdaxilə etməməyi, fərdi bitkiləri və ümumilikdə sağlam inkişafı boğmaqla qorxudan kollarla necə rəftar etməyi bilirlər. Kimsə haqlı olaraq gözləyə bilər ki, onlar yağışdan bəhrələndiyi müddətdə bağı metaforik sulayırlar və quraqlıq zamanı tədarük görürlər. Onlar dövlətin, müstəqil və gəlir gətirən sektorunun mədəniyyətə girişinə böyük diqqət yetirərək hamıya "bağa" girməkdə və ondan həzz almaqda yardım etməlidirlər.

Onda, varlı ya kasıb, böyük ya kiçik olmasından asılı olmayaraq hakimiyyətlərin qarşısında duran məsələ mədəniyyətin "bağbanı" və "vasitəçisi" olması olur. Yalnız ÜDM-dan, yaxud mədəniyyətə ayrılmış

büdcələrdən asılı olmayan bir meyarla ölçmək əhəmiyyətli dərəcədə çoxmərhələli "hərəkət meydanı" yaradır ki, onun da daxilində həqiqi nailiyyəti Avropa boyu müqayisə etmək imkanını verir. Dövlət sektoru baxımından bütün haqqında danışılanları onunla səliqəli yekunlaşdırmaq olar ki, ənənəvi Mədəniyyət(-*in*) Nazirlikləri deyil (Ministry *of* Culture), Mədəniyyət *üçün* Nazirliklərə (Ministry *for* Culture) malik olmaq daha təqdirəlayiqdir.

Araşdırma tədqiqatı və buna uyğun işin məqsədi həmçinin Şərq Tərəfdaşlığı Mədəniyyət Proqramnın və Regional Monitorinq və Bacarığın Artırılması Heyəti fəaliyyətinin inkişafına xüsusi münasib ola biləcək ehtiyacları müəyyənləşdirməkdir.

Tədqiqatdan doğan müəyyən mövzular və ehtiyaclar aşağıdakılara ehtiva edir:

(i) "Yaşıl cücərtilərin" kim tərəfindən yaradıla biləcəyini və həmin şəxslər, qruplar və təşkilatların daha yaxşı necə dəstəklənə biləcəklərini müəyyənləşdirmək

(ii) Mədəniyyət sektorunun bütün pillələrində hansı cür rəhbərliyin lazım olacağını təyin etmək

(iii) Sosial və iqtisadi gündəmə və siyasətə, insanın inkişafına dinamik təsir etməyi mümkün edə biləcək mədəniyyət, mədəniyyət siyasəti və mədəni məşğuluğun və modernləşmə gətirəcək mədəniyyət strategiyalar və siyasətlər üçün tələb olunan əsas elementləri seçmək və vurğulamaq

(iv) Mədəniyyətə girişi asanlaşdırmaq, şəhər-kənd bölgüsü kimi bölgüləri dəf etmək və mədəniyyəti xüsusilə gənc insanların müasir dəyərlərinə və güclü meyllərinə qoşmaq

(v) Keçmişin saxlanılmasına dəstəklə gələcək üçün yaradıcılığa dəstəyi tarazlaşdırmaq

(vi) Fərdi özünüreallaşdırma və mədəni identifikasiya, mədəniyyət istehlakı və mədəniyyətə müyəssirlik baxımından yeni texnologiyaların və rabitə vasitələrinin inqilabi təsiri və potensialını dərk etmək

(vii) Mədəniyyətə aid bütün mövcud resursların səmərəli istifadəsi üçün siyasət və təcrübə müstəvisində dövlət, regional, bələdiyyə, yerli, biznes və müstəqil/QHT səviyyələrinin mədəni fərdləri arasında birgə fəaliyyəti nəzərə almaq və maksimallaşdırılmaq

(viii) Alətlərin inqilabi şəkildə dəyişdiyi, amma ola bilsin insanların öz güclü meylləri, həddləri və qorxuları baxımından o qədər tez dəyişmədiyi çaşdırıcı və çoxçeşidli dünyada müsbət təcrübəni və biliyi bölüşmək

Tədqiqatın bir hissəsindəki müxtəlif ölkələrdəki təcrübənin müqayisələri, "gözəllik müsabiqəsi" kimi yanaşılmaması üçün, müsbət və neytral bir tərzdə aparılmışdır. Araşdırma tədqiqatı altı ölkənin mədəniyyətə yanaşması, mədəniyyət siyasəti və mədəni inkişafı və gələcəkdə hansı ehtiyacları ola biləcəyi obyektiv və subyektiv qiymətləndirilərək cəld "sağlamlıq müayinəsi" kimi bir iş və təsəvvür yaratmaq niyyətindədir. Bunun əsnasında ümid edilir ki, AB, ona üzv ölkələr və Şərq Tərəfdaşlığı ölkələri arasında dəyərverici və daim artan mənalı əməkdaşlıq inkişaf edə bilər.

Qeyd etmək lazımdır ki, hesabata Qarabağı (Dağlıq-Qarabağ) daxil deyil.

## 2. Azərbaycanda Mədəniyyət və Mədəni İnkişafın Bəzi Əsas Xüsusiyyətləri

Müstəqillikdən sonrakı dövrdə bütün Şərq Tərəfdaşlığı ölkələri ilə birgə Azərbaycanın da mədəniyyət sektorunda dövlət siyasəti sadəcə sağ qalmaq idi ki, bu da irsə xüsusi diqqət yetirməyin bir hissəsi kimi milli identifikasiya və xalq formalaşdırması siyasətləri ilə və Sovet dövründən miras qalmış yerli institusiyaların qorunub saxlanılmasının qarışığından ibarət idi.

Problem onda idi ki, istənilən dəyişiklik edildiyi halda, bu dəyişiklik əməli islahatlarla müşahidə edilmirdi və "qoruma" adətən "zamandan geridə qalma" mənasını bildirirdi və mədəniyyət siyasəti, planlaşdırma, menecment və maliyyələşdirmə sistemi Azərbaycanın və digər ölkələrin bulunduğu yeni vəziyyətlərdə məqsədinə uyğun gəlmirdi. Hətta adətən görülən müsbət tədbirlər hər hansı real təsir göstərməkdə iflasa uğrayırdılar, çünki, onlar üzdə olan şeyləri dəyişirdilər və altda qalan məsələlərə girişə bilmirdilər. Mədəniyyət qanunvericiliyi buna yaxşı misallardan biridir. Qanunlar özləri adətən yaxşı tərtib edilirdilər, amma təəssüf ki, qeyri-funksional sistemlər səbəbindən sənədlərə müraciət edilmirdi və sənədlər əməli tətbiqini tapmırdılar. Əgər islahat uğrunda bəzi hərəkətlər edilirdisə, bu ya qətiyyətsiz edilir, ya da "yarımçıq islahatlarla" nəticələndiyinə görə tamamlanmırdılar.

Azərbaycanın vəziyyətində, öz ərazisinin beşdə birinin tutulması ilə nəticələnən, müstəqilliyinin fəlakətli başlanğıcı olaraq Qarabağ uğrunda Ermənistanla müharibə nəticəsində vəziyyət daha da şiddətlənmişdir. Bunun daxili siyasi fəsadları var idi. DYŞ (məcburi köçkün) problemindən əlavə bunun həmçinin mədəni irsə hörmətdə qarşılıqlı ittiham və mədəniyyətin imkanları məsələləri də daxil olmaqla, mədəni fəsadları da var idi. Bu münaqişə əlbəttə hələ də həllini tapmamış beynəlxalq məsələlərdən biridir.

Ötən bir neçə ildə neft sayəsində inkişaf etmiş bir iqtisadiyyat ölkədə stabilliyin və çiçəklənmənin əsasını qoymuşdur. Mədəniyyət sahəsi bundan faydalanmışdır və doğrudan da mədəniyyət və mədəni diplomatiya Azərbaycanın beynəlxalq səviyyədə artan əminliyinin əksi olaraq ön xəttə durmuşdur. Böyük diqqətlə, mədəniyyət siyasəti perspektivindən baxdıqda, Azərbaycan, reaktiv post-sovet dövründən çıxmışdır.

Görünür ki, yüksək səviyyədə mərkəzləşdirilmiş və "dirijist" bir hakimiyyət modelinə zidd olaraq, mədəniyyət siyasətinə cavabdeh olanlar da eşidərək və öyrənərək, mədəniyyət üçün ayrılmış investisiya onlar tərəfindən artan müsbət təsirlə istifadə edilir. Planlaşdırmanın əksər tərkib hissəsində artıq strateji düşüncə aşkar görünür, planlaşdırılma özü uzunmüddətli perspektiv əsasında aparılır. Teatr və film istehsalına aid yeni onillik dövlət proqramları bunun üçün yaxşı nümunələrdir.

Ümummilli mədəniyyət strategiyasının təkmilləşdirilməsi hal-hazırda inkişaf etdirilməkdədir. Strateji yanaşma yenilənir, halbuki, keçmişdə bəzən görünürdü ki, yeni təşəbbüslər binaların içində baş verəcəklərə deyil, daha çox onların mötəbərliyinə diqqət edirdilər. Dövlət film istehsalatı və teatr proqramları məsələsində, misal üçün, diqqət təkcə avadanlıq və təchizata deyil, həm də bacarıq artırılmasına və beynəlxalq əlaqələrə və mübadiləyə yönəldilir.

Bakının mədəniyyət infrastrukturu, son illərdə Xalça Muzeyi və Beynəlxalq Muğam Mərkəzi kimi Azərbaycanın ənənəvi mədəniyyətində səciyyəvi xarakter daşıyan sahələr daxil olmaqla təlqinedici səviyyəyə yüksəldilib. Bu inkişafın Bakıda daha aydın göründüyü halda, qədim İpək Yolunun bir qolunun üzərində yerləşən Şəki kimi tarixi mərkəzdə maraqlı layihələrin həyata keçirilməsini paytaxt məhdudlaşdırmır.

İndiki mədəniyyət siyasəti və planlaşdırması ilə beş il bundan qabaqkı mədəniyyət siyasəti arasındakı ziddiyyət gözəçarpandır və mərkəzləşdirilmiş, "dirijist" bir siyasi modeli davam etdirdiyi halda ölkənin yetişməkdə olan əminliyini əks etdirir. Bu yetişməkdə olan əminlik həm mədəni mövqeyə can atmaqda, həm də keçmişdə uyğunsuz, hətta təhlükə kimi qəbul edilə bilən qeyri-dövlət mədəni fərdlərin münasibətlərini dəyişməkdə görülə bilər.

Mədəni mövqe məsələsində ölkə, beynəlxalq, yaxud regional təşkilatlara qoşulma prosesi vasitəsilə onların necə işlədiklərini öyrənir və bundan daha da aktivləşir. Bunlara misal olaraq Avropa Şurasına, TURKSKOY və ISESCO-ya üzvlüyü göstərmək olar. Sonuncuya üzvlük haqqında qeyd etmək maraqlıdır ki, Bakı 2009-cu ildə İslam Mədəniyyəti Paytaxtı seçilmişdir. Şəhər həmçinin onun Türk, Avropa və İslam

etimadnaməsini əldə etdiyinə görə Avropa və Asiya arasında potensial körpü rolunu oynayan vacib beynəlxalq hər iki ildə bir keçirilən Dünya Forumunun əsasını qoyaraq fərasətlə özünü "beynəlxalq dialoq" gündəmi ilə identifikasiya edib.

Digər Şərq Tərəfdaşlığı ölkələri kimi, bu ölkədə də xalqın formalaşdırması və milli identifikasiya prosesləri üçün mədəni irsə üstünlük verilmişdir. Bunun üstünlük təşkil etdiyi bir dövrdə, son zamanlar həm ölkə daxilində, həm də milli mədəni diplomatik strategiyasının bir hissəsi kimi müasir mədəniyyətin inkişaf etdirilməsində güclü cəhdlər göstərilib. 2007-ci ildən etibarən Venesiya Biennalında Azərbaycan pavilyonu nümayiş edilir, beynəlxalq tədbirlərdə iştirak etmək üçün istənilən cür Azərbaycan incəsənət xadimlərinə dəstək göstərilib. Bu məzmunda qeyd etmək lazımdır ki, bu cür dəstək sadəcə ənənəvi fəaliyyət növləri ilə məhdudlaşmır. Daun sindromlu uşaqların və Dövlət Pantomima Teatrı aktyorları ilə birgə eksperimental teatr tamaşasın Parisdə nümayiş olunması bunun əks etdirən bir misaldır.

Göründüyü kimi, bəzilərinin ləngidici Sovet mirası olmaqla və bəzilərinin ölkəni bu günədək stabillik və inkişafla təmin edən siyasi və sosial sistemlərinin, amma yeni gözləntilərin və dəyişən şəraitlərin öhdəsindən effektiv gəlinməsini üçün lazım olan aminliyin üçün inkişaf etdirilməsinə ehtiyacı duyulan mirası olmaqla böyük çətinliklərin hələ də qarşıda durmasına baxmayaraq, gələcək üçün qabaqcadan yaxşı vəd verən bir sıra müsbət dəyişikliklər edilib. Həm Sovet mirası, həm də mədəniyyət menecmentinin hazırki dövlət modelindəki məhdudiyyətləri özündə o faktı ehtiva edir ki, Azərbaycanda mədəniyyəti müzakirə edərkən adam demək olar ki, ancaq Mədəniyyət Nazirliyi və onun fəaliyyəti barədə danışır. Virtual olaraq ölkədə nə mədəniyyətlə əlaqəli biznes sektoru, nə də mühüm məna kəsb edən yaradıcı sənaye mövcuddur. Mədəniyyət QHT-ləri mövcuddur, amma onların çox yaxşı bir misal olaraq musiqi yazma və arxivləşdirmə sahəsində (www.musig-dunyasi.az) effektiv və dəyərli fəaliyyətlərinə baxmayaraq, bu fəaliyyət mühüm məna kəsb edən sektor deyildir. Gələcəyin ciddi dəyişikliyi həm islahatla, həm də dövlət mədəniyyət institutları ilə QHT və kommersiya mədəniyyət sektorunun birgə inkişafı ilə gələcək.

Daha bir Sovet mirası demoqrafiyaya, etnik məsələlərə və dilə aiddir. Demoqrafiya və etnik məsələlərdə çox aydın görünəni hazırda davam etməkdə olan Qarabağ problemidir. Dil məsələsi də bir problemdir, çünki, Azərbaycan dilinin rəsmi dil olmasına baxmayaraq, Rus dili hələ də çox geniş istifadə edilir. Bu vəziyyət təbii ki, yaxşılaşmaqdadır. Ölkə öz dilini yenidən qurur, çünki, dövlət dili olaraq indi Azərbaycan dili dövlət işində və televiziyada istifadə edilir.

# 3. Araşdırma Tədqiqatı

## 3.1. Kontekst / Mühit

### 3.1.1. Qanunvericilik, vergi, qeydiyyat və fəaliyyət məsələlərinin mədəniyyətə təsiri. Bu məsələlərin mədəniyyəti və yaradcılığı dəstəkləməsi dərəcəsi

**a. Dövlət qanunvericiliyinin (məsələn, mədəniyyət sektoru fəallarının qarşılaşdıqları) mədəniyyətin inkişafına, yaxud mədəniyyət sektorunun "sağlamlığına" birbaşa təsirinin dərəcəsi və bu məsələnin ciddi problemə çevrilmə hüdudu**

Ölkənin qanunvericiliyini AB qanunvericiliyi ilə uyğunlaşdırmaq üçün çox cəhdlər edilib və Milli Məclisin Qanunvericilik Şöbəsinin son bəyənatına görə bu proses 2013-cü ildə bitməlidir. 1998-ci ildə qəbul edilmiş Mədəniyyət haqqında Qanun, dəyişən reallığı əks etdirmək iddiyasında idi. Bu Qanunda mümkün düzəlişlərin edilməsi hazırda müzakirə edilir.

Mədəniyyət və Turizm Nazirliyi tərəfindən yeni hazırlanmış və xüsusi yaradılmış nazirliklərarası İş Qrupu tərəfindən baxılan "Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası" nümunəsinə əsasən, birinin adı "Hüquqi Zəmanətin İnkişafı" olan, orta müddətdə izləniləcək yeddi ümumi mədəni siyasət hədəfi var. Bu tədbirlər toplusu aşağıdakıları nəzərdə tutur:

- milli mədəniyyət siyasəti qanunvericiliyinin kompleks şəkildə təkmilləşdirilməsi;
- beynəlxalq konvensiyalar və qarşılıqlı sazişlərin tətbiqi mexanizmlərinin genişləndirilməsi;
- mədəniyyət və müəllif hüquqlarının qorunmasına dair mövcud təcrübənin təkmilləşdirilməsi.

**b. Dövlət qanunvericiliyinin mədəniyyət və yaradıcılığın inkişafına mədəniyyətə məxsus, yaxud ümumi təsiri.**

Azərbaycanın hazırki dövlət qanunvericiliyinə, xüsusilə mədəniyyət və irs sektorunun müxtəlif sahələrinə ünvanlanmış saylarla qanunlar və fərmanlar aiddir (misal üçün, Teatr haqqında Qanun, Milli Folklorun Qorunması haqqında Qanun, Muzey haqqında Qanun və unikal Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında Qanun).

**c. Mədəniyyət qanunvericiliyində, uğur əldə etməsinə güman edilən nümunələr.**

Bütün qanunlar, müvafiq və tam miqyasda tətbiq edilməsi üçün genişləndirilmiş səylər tələb edir.

**d. Aşkar edilmiş problemlərə və həmin problemlərin təsvirinə ünvanlanması planlaşdırılan mədəniyyətə aid yeni, yaxud yenidən baxılmış qanunvericilik.**

Baxın 3.1.1.a.

**e. Vergi qaydalarının, yaxud məsələlərinin, mədəni inkişafı, yaxud mədəniyyət sektorunun sağlamlığını ləngitmə dərəcəsi (məsələn, mədəniyyət sektoru fəallarının qarşılaşdıqları).**

İndiyədək dövlət qanunvericiliyində nə mədəniyyət istehsalatı/xidməti, nə də mədəniyyət himayəçiliyi (sponsorluğu) üçün vergi imtiyazları haqqında xüsusi şərt var. Bütün maliyyə əməliyyatları ümumi qanunvericilik əməliyyatları tərəfindən idarə edilir. Bu əməliyyatlara, öz işi ilə məşğul olan fərdlər və kiçik və orta müəssisələr üçün sadələşdirilmiş vergi şərtlərini təmin edən Vergi Məcəlləsi və qrant ianəsi kimi əldə edilmiş gəlirə sıfır-faizli ƏDV təyin edən Qrantlar haqqında Qanun kimi əlverişli şərtlər təmin edən qaydalar daxildir.

**f. Mədəniyyət QHT-nin, yaxud mənfəət obyektinin qeydiyyatı prosesi: müddət, fazaların sayı, qoyulan xərclər, mürəkkəblik.**

Qanunvericiliyə müvafiq olaraq QHT-lərin dövlət qeydiyyatından keçməsi prosesi 40 gün çəkir. Əgər Ədliyyə Nazirliyində 30 gün ərizəyə baxılma müddətində bəzi məlumatlar natamam, yaxud səhv təşkil olarsa, onda ərizənin düzəlişi üçün daha bir 30 günlük müddət verilir.

Dünya Bankının " Biznesin Daha Şəffaf Dünyada Gerçəkləşməsi" 2012-ci il hesabatında təqdim edilən sıralamada Azərbaycan 183 ölkə arasında 66-cı yerdə öz mövqeyini tutmuşdur.
(http://www.doingbusiness.org/~/media/fpdkm/doing%20business/documents/annual-reports/english/db12-fullreport.pdf)

Azərbaycan, mənfəət firmasının yaradılması prosesində sadəliyə görə dünyada 18-ci yeri tutur (qeydiyyat üçün 8 gün, 6 prosedur və 0 minimum kapital tələb olunur).

### 3.1.2. Şəffaflıq və Korrupsiya

**a. Transparency International İndeksində ölkə sıralaması: hazırki və son iki illə müqayisə edilənlər.**

Transparency International tərəfindən illik riayət edilən Korrupsiya Qavrama İndeksinə görə 2011-ci ildə Azərbaycan (10 - çox təmizdən 0 - çox korlanmış şkalada) 2.4 xal aldı ki, bu da keçən ildəki qədərdir və 2011 ildə tədqiqat aparılmış 183 ölkə arasında 143-cü yeri tutub (2010-cu ildə ölkə 178 ölkə arasında 134-cü yeri tutmuşdur).

**b. Birbaşa korrupsiyanın, yaxud mədəniyyət sahəsində bilərək edilən şəffaflıq azlığı, yaxud mədəniyyət sektorunda ümumi korrupsiyanın təsirinin mövcudiyyətini işıqlandıran istənilən başqa etibarlı mənbə**

Korrupsiyanın problem olduğu halda, tədqiqatlarda və hesabatlarda Azərbaycanın mədəniyyət sektoru korrupsiya ilə ciddi korlanmış bir sahə kimi bildirilməyib.

### 3.1.3. Rəsmi və İctimai İnformasiyanın Təchizatı və Yayımlanması

**a. Mədəniyyət Nazirliyinin internet səhifəsi bütün hazırki mədəniyyət qanunvericiliyini özündə saxlayırmı, yaxud asan əlçatandırmı?**

Bəli. "Documents" (Sənədlər) bölməsində qanunlara, prezident fərmanları və sərəncamlarına, Nazirlər Kabinetinin sərəncamları və qərarlarına, Nazirlik İclasının qərarları, nizamələri, əsasnamələri, ərizələr şablonları və sorğulara ünvanlayan alt-bölmələr vardır.

**b. Mədəniyyət Nazirliyinin internet səhifəsinin mədəniyyət təşkilatlarına və fərdlərə məsləhət və dəstək/maliyyələşdirmə məsələlərində faydalılıq dərəcəsi.**

Hal-hazırda xeyr. Bu məlumatlar internet səhifədə xüsusi bölmə kimi nəzərdə tutulmayıb.

**c. Keçən il, yaxud dövrdə mədəniyyət təşkilatlarına və/yaxud fərdi qaydada Mədəniyyət Nazirliyi tərəfindən təmin edilmiş dəstək/maliyyələşdirmə haqqında məlumatın Nazirliyin səhifəsində mövcudluğu.**

Bütün növ məlumatlar (fəaliyyət hesabatları, nominasiyalara çağırışlar, müsabiqələr və s.) internet səhifənin yalnız "News" (Xəbərlər) bölməsində izlənilə bilər və onlar xüsusi bölmədə bir yerə toplanılmayıb.

**d. Nazirliyin internet səhifəsində Mədəniyyət Nazirliyinin büdcəsi, maliyyə təyinatları və həqiqi xərclər haqqında məlumatın mövcudluğu.**

Yox.

**e. Mədəniyyət Nazirliyinin internet səhifəsində a.-dan d.-dək göstərilən punktlar yoxdursa, onların başqa mənbədə elektron (başqa məlum internet səhifə), yaxud çap formatda mövcudluğu.**

Büdcə xərcləri (dəqiq göstəricilərlə) ölkənin Avropada Mədəniyyət Siyasətləri və Trendləri internet səhifəsindəki profilində təqdim edilib:
http://www.culturalpolicies.net/web/azerbaijan.php?aid=623

**f. Mədəniyyət Nazirliyinin internet səhifəsinin istifadə səviyyəsi (yəni, internet statistikası, məsələn, kliklər, ziyarətçilər).**

Məlumat tapılmayıb.

**g. Mədəniyyət Nazirliyinin internet səhifəsinin digər nazirliklərinin, yaxud mədəniyyətə, uyğun planlaşdırma və mədəniyyət fəaliyyətinə aid olan təhsil, gənclər, lisenziyalaşdırma, və s. mərkəzi və ya yerli dövlət orqanlarının internet səhifələrinə çarpaz istiad.**

İnternet səhifənin hazırki versiyasında bu şərt deyil.

***3.1.3-ə ümumi qeyd:***

Azərbaycan hökuməti tərəfindən məlumata dair məsuliyyət və ona istinad məsələlərə nəzər yetirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2011-ci il may ayındakı "Dövlət Hakimiyyəti tərəfindən Elektron Xidməti Təchizatı Sahəsindəki bəzi Tədbirlər haqqında" fərmanı dövlət icra orqanlarını aşağıdakı əməllər üzərində səylərini toplamağa çağırır:

- rəsmi internet səhifələrində e-xidmət bölmələri yaratmaq və bu servisləri sərbəst istifadəyə vermək
- ictimaiyyətə, rəsmi prosedurlar və sənədləşdirmələr tapmaq üçün elektron məlumat toplusundan istifadəyə imkan vermək
- ictimaiyyət tərəfindən elektron (skan olunmuş) formatda müraciət və şərhlərin qəbul olunmasına şərait yaratmaq
- şəxsi məlumatların və real vaxtda dövlət xidmətlərindən istifadə üçün ödəmə əməliyyatlarının qorunması üçün təhlükəsizlik sistemi yaratmaq

Rabitə və İnformasiya Texnologiyaları Nazirinin müavini Elmir Vəlizadə təzəlikcə Bakıda beynəlxalq kommunikasiya konfransında yeni bir internet səhifəsinin istifadəyə verildiyini bəyan edib ki, burada da on nazirlik e-hakimiyyət portalına qoşulub və digər nümayəndəliklərin də qoşulması üzərində işlər aparılr.

Qeyd etmək lazımdır ki, təzəlikcə Mədəniyyət və Turizm Nazirliyinin baş səhifəsində internet səhifənin yeni versiyasının üzərində işlər aparıldığını və gələn aylarda istifadəyə veriləcəyini bildirən mətn xətti peyda olur. Dəyişikliyə ehtiyac olunduğu zaman özünü məlumatlandırmaq və qiymətləndirmək üçün bu, yaxşı işarə ola bilər.

### 3.1.4. Mədəniyyət Siyasətinin digər Siyasətlər və Strategiyalara İnteqrasiyası

**a. Qanuni sənədlərin, yaxud digər rəsmi məlumat mənbələrinin mövcudluğu.**

"2009-2013-cü illərdə Sosial-iqtisadi İnkişaf üçün Dövlət Proqramı" Mədəniyyət və Turizm Nazirliyi başda olmaqla, müxtəlif nazirliklərə aiddir. Yeni Dövlət Proqramı hal-hazırda inkişaf etdirilməkdədir, mədəniyyətlərarası dialoqu dəstəkləməyi, araşdırmanı və təşviqini genişləndirmək üzərində səylər cəmləşdirilir və müxtəlif nazirlikər və dövlət orqanlarının toplanmış cəhdlərini sövq edir.

**b. Nazirliklər / agentliklər / sahələr arasında birgə fəaliyyətləri nümunələri.**

Bir çox məsələlərdə Azərbaycan Respublicasınn Prezidenti, yaxud Nazirlər Kabineti nazirliklərarası işbirliyini asanlaşdırmaq və uzunmüddətli dövlət proqramlarını, yaxud konkret layihələr reallaşdırmaq üçün müxtəlif dövlət səviyyələrindən olan nümayəndələr daxil olmaqla, müxtəlif dövlət və təşkilat komissiyaları qururlar. "2009-2013-cü illərdə Sosial-iqtisadi İnkişaf üçün Dövlət Proqramı" onların gördükləri işə bir nümunədir.

Dövlət komissiyaları həmçinin, məsələn, mədəniyyətlərarası dialoqa imkan yaratmaq və mədəni azlıqların hüquqlarına zəmanət vermək məqsədi ilə Azərbaycan Respublikasının "İqtisadi, Sosial və Mədəni Haqqlar haqqında Beynəlxlaq Sazişi" (İSMHBS) haqqında İkinci Dövri Hesabatı kimi beynəlxalq təşkilatlara dövlət hesabatı hazırlamaq üçün yaradıla bilərlər. Bu hesabat, xarici işlər, daxili işlər, ədliyyə, səhiyyə, mədəniyyət və turizm, təhsil və digər nazirliklərin iştirakı ilə bir Dövlət Komissiyası tərəfindən hazırlanmışdır.

**c. Müntəzəm rəsmi, yaxud qeyri-rəsmi planlaşdırma, iclaslar, yaxu oxşar görüşlər.**

Baxın 3.1.1.a, "Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası" yaradan nazirliklərarası iş qüvvəsi məsələsinə.

### 3.1.5. Təcrübədə Məsuliyyət və Doğruluq

**a. Rəsmi və müntəzəm iclaslar və görüşlər: (1) mədəniyyət sektorunun nümayəndələri ilə; və (2) kütləvi informasiya vasitəsi nümayəndələri ilə.**

Mədəniyyət və Turizm Nazirliyi xüsusi yeni layihələr və təşəbbüslər haqqında mütəxəssislərlə dəyirmi masa müzakirələri və iclaslarını müntəzəm olaraq keçirir. Nazirliyin başqa qurumların nümayəndələri ilə keçirdiyi iclaslara Mədəniyyət haqqında Qanuna ediləcək dəyişikliklərin müzakirəsi ilə bağlı saylarla görüşlərə dəvətlər, Mədəniyyət Evləri şəbəkəsinin yenidən bərpası proqramının inkişafı, UNESCO Qeyri-maddi Mədəni İrsinin Dünya Siyahısına təqdimatlar, ölkədə caz musiqi səhnəsinə dəstəkləmək üçün koordinasiya qrupunun yaradılmasını nümunə gətirmək olar .

**b. Ümumi siyasət, büdcə və fəaliyyət haqqında məlumatın maraqlanan kütləyə təmini müntəzəmliyi.**

Nazirlik öz fəaliyyəti haqqında KİV-konfransları və mətbuat nəşrləri vasitəsilə müntəzəm olaraq hesabat verir. Vaxtaşırı yerli QHT-lər və müstəqil jurnalistlər mədəniyyətə və mədəniyyət siyasəti məsələlərinə aid olan xüsusi araşdırmalar və monitorinq müşahidələri aparırlar. Nümunə olaraq regional teatr sisteminin fəaliyyətinə aid layihələrin və ictimai kitabxanaların vəziyyətinə aid monitorinqlər aiddir və onlar ictimaiyyətdə açıq müzakirə edilib. Hər iki layihə 2010-cu ildə Açıq Cəmiyyət İnstitutunun Yardım Fondu (OSIAF) - Azərbaycan tərəfindən dəstəklənmişdir.

**c. Mədəniyyətə və mədəniyyət sektoruna cavabdeh olan səlahiyyətli orqanların ticarət planları və məqsədlərinin ictimaiyyətdə mövcudluğu.**

Mədəniyyət və Turizm Nazirliyi KİV buraxılışları vasitəsilə öz planları və məqsədləri barədə müntəzəm təlimatlar verir, halbuki, uzunmüddətli planlaşdırma və ətraflı biznes-planları haqqında ictimaiyyətə ətraflı şərh bildirmək hələ adət halını almamış təcrübədir.

### 3.1.6. Mədəniyyət Sektorunun İctimai İnkişafa verdiyi Tohfə

**a. Mədəniyyətin və mədəniyyət fəaliyyətinin sosial və iqtisadi inkişafda, sosial birlikdə, münaqişə həllində və mədəniyyətlərarası dialoqda mədəniyyət sektorunun peşəkarları tərəfindən rolunun mərkəzi və yerli orqanları arasında məlumatlandırılma dəlili, yaxud müşahidəsi.**

Son illərdə Azərbaycan müxtəlif mədəniyyətlərin görüş yeri olmaqla ölkənin mədəni mahiyyətinin bərqərar olması strategiyasına malik olub. 2008-2009-cu illərdə Bakı "Mədəniyyətlərarası Dialoq, Avropada və onun Qonşu Regionlarında Davamlı İnkişafın və Sülhün Əsası kimi" mövzusunda Mədəniyyətə cavabdeh Nazirlərin Konfransına və bundan əlavə İslam Konfransı Təşkilatının (OIC) Mədəniyyət Nazirlərinin Altıncı Konfransına ev sahibliy edib. Hər iki halda görüşlərin məqsədi dünyanın iki regionu arasında dialoqun yaradılması məqsədini daşıyıb.

Bu cəhdlərin məntiqi genişlənməsi 2011-ci ilin Aprel ayında Bakıda Azərbaycan Respublikası Prezidentinin himayəsi altında keçirilən Birinci Dünya Mədəniyyətlərarası Dialoqu Forumu UNESCO, BMT Sivilizasiyalar Alyansı, Avropa Şurası, ISESCO, Şimal-Cənub Mərkəzi və Dünya Turizm Təşkilatı tərəfindən birgə təşkili olub. Dünyanın hər tərəfindən gəlmiş alim və praktiki fəaliyyət sahiblərinin geniş təmsilli toplantısı olmaqla yanaşı, bu sahədə müntəzəm və davamlı səylərə ehtiyac məsələsi peyda olmuşdur. Prezident İlham Əliyevin imzaladığı fərmanla elan olunmuşdur ki, Bakı, hər iki ildən bir Dünya Forumlarına ev sahibliyi

edəcək və bununla da növbəti irimiqyaslı forum 2013-cü ilin may-iyun aylarına planlaşdırılıb. Beynəlxalq elmi heyət hal-hazırda bu mövzuda dünyanın bütün region və qitələrini təmsil edən aparıcı mütəxəssislərin iştirakı ilə formalaşdırılır. Bu araşdırmanın birinci təməl görüşü 2012-ci ilin aprel ayına planlaşdırılmışdı.

Mədəniyyətə aid fəal təşəbbüsləri işıqlandıran daha kiçik miqyaslı təşbbüslər və layihələr var. Bunlara aşağıdakılar aiddir:

- "Azərbaycanın Dünya Birliyinə İnteqrasiyası: Mədəniyyətlərin İpək Yolu" adlı konfrans, QHT-lərə Dövlət Yardım Şurasının dəstəyi ilə 2009-cu ildə Bakıda bir QHT tərəfindən təşkil olunmuşdur;
- xüsusi ehtiyacları olan uşaqlar üçün teatrların şəbəkəsi və illik festival altı il fəaliyyət göstərmişdir və onun iyirmi üzvləri arasında müstəqil teatr qrupları vardır ki, onlar da sayı artan donorlar və Mədəniyyət və Turizm Nazirliyi tərəfindən dəstəklənirlər;
- beş Şimali Avropa ölkələsindən təsviri sənət ustasının iştirakı ilə Bakının beş şəhərətrafı qəsəbəsində keçirilən *public/community art* sənət əsərləri layihəsinə start verilmişdir;

**b. Bu sahəyə aid olan statistika, araşdrma və biliyin keyfiyyəti və mövcudluğu.**

Fəaliyyətin bu sahəsi hələ yaradılmamışdır. Layihələr təsadüfi, adətən layiq olduqlarından daha az ictimai diqqətlə və koordinasiya və tərəfdaşlıq çatışmamazlığı ilə baş verir.

### 3.1.7. Müstəqil və QHT Sektorlarının Rolu

**a. Qeyri-hökumət mədəniyyət sektorunun (qeyri-)vacibliyinin və potensialının aşağıdakı orqanlar tərəfindən dərk edilməsi:**
- **Mərkəzi orqanlar**
- **Yerli orqanlar**

Məlumat toplanmayıb.

**b. Qeyri-hökumət mədəniyyət sektorunun (qeyri-)vacibliyinin və potensialının mədəniyyət sektorunun peşəkarları tərəfindən dərk edilməsi:**

Məlumat toplanmayıb.

**c. Qeydiyyatdan keçmiş "mədəni" QHT-lərin sayı.**

Məlumat tapılmayb.

**d. Qeydiyyatdan keçmiş fəal "mədəni" QHT-lərin sayı.**

Dəqiq say çətinliklə hesablana bilər.

**e. 15 nəfərədək işçi sayı olan mədəniyyət QHT-lərinin, yaxud qeyri-ticari mədəniyyət təşkilatlarının sayı.**

Məlumat toplanmayıb.

### 3.1.8. Özəl və Kommersiya Sektorlarının Rolu

**a. Ticari mədəniyyət sektorunun vacibliyinin və potensialının aşağıdakılar tərəfindən dərk edilməsi:**

- **Mərkəzi orqanlar**

Hazırlanan "Mədəniyyətin Konsepsiyası"na aşağıdakı şərtlər daxildir:
- incəsənət və mədəniyyət üçün dövlət büdcəsinin optimal ölçüsünün qiymətləndirilməsi;
- alternativ maliyyələşdirmə mənbələrinin (məsələn, sponsorların, himayədarların, dəstəkçilərin, və s.) cəlb olunmaları;
- ödənişli mədəniyyət xidməti sistemini təkmilləşdirmək üçün aktual marketinqin tətbiqi.

- **Yerli orqanlar**

Məlumat toplanmayıb.

- **Kommersiya sektorunun peşəkarları**

2009-cu ildə Mədəniyyət Sahibkarlarının Koalisiyası yaradılmışdır, halbuki, əvvəldən fəaliyyət göstərməyib. Yaradıcılıq Sənayesindəki beynəlxalq təcrübələri əhatə edən informasiya bülleteni koalisiya tərəfindən nəşr edilib və yaymlanmışdır.

- **Qeyri-ticarət sektorun peşəkarları**

Məlumat toplanmayıb.

**b. Mədəniyyət sahəsinin bir hissəsi kimi təsnif edilən ticarət qeydiyyatları, yaxud gəligətirən mədəniyyət fəaliyyətinə uyğun qeyd edilmiş statistika.**

Dövlət Statistika Komitəsindən verilmiş ölkənin kiçik və orta müssisələrinin təsnifatı, mədəniyyətə aid sektor üçün heç bir istinad/əlavə göstərmir, yaxud siyahıya daxil edilən kateqoriya yoxdur. Vergi ödəyiciləri üçün fəaliyyət kateqoriyaları siyahısında "film, video və TV istehsalatı, post-prodakşn və yayımlanma", "səsyazma və musiqi istehsalı", "mədəniyyət sahəsində təhsil", "muzey fəaliyyəti", "təsviri incəsənətdə fəaliyyət", "musiqiçilər", "incəsənət sahəsində digər növ fəaliyyət" üçün kodlar/kateqoriyalar vardır. 2007-ci ildə bir QHT tərəfindən Bakıda rəhbərlik edilmiş müstəqil audiovizual istehsalatın qısa tədqiqat zamanı onsəkkiz (əksəriyyəti) kiçik video studiyaları aşkar edilmişdir. Bu studiyalar kiçik çevrə müntəzəm müştərilər arasında tanınırdılar, amma bu çevrələrdən xaricdə tanınmırdılar.

**c. Gəlirgətirən mədəniyyət sektorunda maliyyə dövriyyəsi haqqında mövcuddursa rəsmi statistik məlumat, yaxud istənilən digər etibarlı mənbələr.**

Məlumat toplanmayıb.

**d. İşçi sayı 50-dən çox olan gəlirgətirən mədəniyyət təşkilat və şirkətlərinin sayı.**

Bilindiyi qədər yoxdur.

### 3.1.9. Mədəniyyətdə və Mədəniyyət Məsələlərində Milli Sadə və Elektron Media və buna Həsr Edilmiş Nəşriyyatların Maraqları

a. **Peşəkar mədəniyyət nəşriyyatlarının sayı və onların oxuculuq qabiliyyəti, yaxud tirajları.**

Bir neçə ədəbi jurnal (bir rus və bir dünya ədəbiyyatından tərcümələrə həsr olunmuş jurnal daxil olmaqla) və bir neçə daha çoxsahəli jurnallar vardır.

**b. Mədəniyyət sektorunun mütəxəssislərinə uyğun olan vacib və səmərəli "mədəniyyət veb-səhifələrin" sayı**

www.mct.gov.az
http://e-qanun.az
www.azstat.org
http://cssn.gov.az
http://www.preslib.az/melum.html
http://www.kitabxana.net/
kultaz.com
www.kultura.az
www.kulis.az
http://www.icom.azeurotel.com
www.musigi-dunya.az
http://azeriart.net/

www.bakupages.com
www.citylife.az
https://wcd.coe.int/ViewDoc.jsp?Ref=PR304(2011)&Language=lanEnglish&Ver=original&BackColorInternet=F5CA75&BackColorIntranet=F5CA75&BackColorLogged=A9BACE

Bəzi yeni qurulmuş qruplar təcili genişənmək üçün daha asan yol seçirlər - Facebook səhifəsindəki elanlar vasitəsilə, məsələn:

- Kinochic və FOKUS, film-yaradıcılığına aid məsələlərin müzakirəsinə həsr ediliblər;
- Arts Council Azerbaijan müntəzəm olaraq Bakıda təşkil olunan təsviri incəsənət sərgilərindən fotoqrafik hesabat yayımlayır;
- Kitabseverler - kitab həvəskarlarının forumu 4000-dən çox abunəçisi vardır.

Saylarla on-line debat platformalarının geniş mədəniyyət bölmələri vardır (məsələn, www.disput.az).

**c. Bu cür səhifələrin istifadəsi, yəni, ziyarətçi və klik və s. saylarını işıqlandıran mövud statistik məlumat.**

Məlumat toplanmayıb.

**d. Adi bir həftədən götürülmüş mədəniyyət tədbirləri və debatlarının səviyyələrini əhatə edən yerli mətbuat və media yayımları (məsələn, mahiyyətli gündəlik və həftəlik qəzet/jurnallarda məqalə və bülletenlərinin sayı; mədəniyyət tədbirərinə aid olan media xatırlatmaları, müsahibələri, yaxud proqramlarının sayı)**

2011-ci ilin əvvəlindən yeni televiziya kanalı, Mədəniyyət TV yaradılmışdır ki, bu da xüsusilə mədəniyyətə həsr edilərək 24 saat efirdədir. Kanal yerli və beynəlxalq mədəniyyət xəbərlərini əhatə edir və birinci milli kanalın məşğul qrafikinə salınması çətin olan bütöv konsert proqramlarını və teatr, opera və balet tamaşalarını yayımlayır. Əsas festivallar zamanı lentə alınmış ifalar faktiki olaraq növbəti gün TV-də göstərilir. Başqa kanallardan fərqli olaraq Medeniyyet TV müntəzəm şəkildə öz proqramlarına dünya film mirasının ekranlaşdırmalarını, həmçinin *art house* janrındakı filmləri daxil edir.

Azərbaycanda ümumi məqsədli (Azərbaycan, İngilis və Rus dillərində xəbər yayan) xəbərlər agentliyinin internet səhifələrində mədəniyyət bölməsi mövcuddur. Qeyd etmək lazımdır ki, onların bəzilərində "mədəniyyət" və "showbiz" bölmələri arasında fərq qoyulur. Bu necə də olmasa yerli münasibəti/dərketməni əks etdirir.

**e. Son iki ildə mədəniyyət və mədəniyyət məsələlərinə marağı olan ixtisaslaşdırılmış mediya buraxılışlarının, mədəniyyət sektorunun peşəkarları, yaxud yerli çap və elektron mediada digər dəyişiklik faktları arasında dərk edilməsi.**

Məlumat toplanmayıb.

### 3.1.10. Mədəniyyətə, Mədəniyyətin Qorunmasının və Mədəniyyətə Ulaşıma aid olan Şəhər-Kənd Fərqi

**Dövlət orqanlarının bu sahəyə aid edilən vacibik, yaxud prioritet haqqında sübut (məsələn, qanun bəyənnamələri, nazirlik çıxışları, ciddi mətbuat və media yazıları).**

2010-cu ildə başlanılmış "Milli Mədəniyyət və Müasir Mədəniyyət Siyasəti" mövzusundakı regional layihə hələ də davam etdirilməkdədir. Bu layihə çərçivəsində artıq ölkənin 11 şəhər və rayonlarında (Gəncə, Lənkəran, Ağdaş, Şamaxı, Şirvan, Mingəçevir, Qusar, Zaqatala, Şəki, Göyçay və Sumqayıt) seminarlar təşkil edilmişdir. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təşkil edilən bu seminarlara Azərbaycan Respublikası Prezidentinin yanında Dövlət Administrasiyası Akademiyasının, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin, Bakı Dövlət Universitetinin və Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə, Sosiologiya və Qanun İnstitutunun nümayəndələri ilə birgə tanınmış elm xadimləri rəhbərlik edirlər. Layihənin əsas məqsədi mədəniyyət siyasətinin tədqiqi üçün lazım olan biliyin əsasının qoyulmasıdır.

### 3.1.11. Dil Məsələləri

**İki il bundan əvvəlki vəziyyətlə müqayisədə hazırki vəziyyətdə dəyişiklik dinamikası (müsbət/mənfi).**

Ötən illərlə müqayisədə Azərbaycan dilinin rəsmi dil kimi istifadə edilməsi artmaqdadır və bunun müxtəlif əməli təsirləri vardır, özü-özlüyündə isə ayrıca öyrənilməsi üçün vacib bir məsələdir. Bu dəyişiklik kontekstində qeyd edilməsi vacib hesab edilən nümunələr:

- müxtəlif dillərdə tədris olunan məktəblərdə Azərbaycan dili üzrə təlimin və dərsliklərin keyfiyyətinin artması . Bir neçə il öncə Təhsil Nazirliyi tərəfindən təklif edilmiş qaydalara əməl etdikdən sonra Azərbaycan dilindəki test bütün orta məktəblərdə başqa fənnlər üçün son imtahandan qabaq, ayrı-ayrılıqda hazırlanır.
- Azərbaycan dilinə daha intensiv ədəbiyyat tərcüməsi fəaliyyəti - həm dövlət səviyyəsində (məsələn, prezidentin xüsusi fərmanından sonra həyata keçirilən dünya ədəbiyyatının 150-cildlik seriyasına həmçinin ədəbiyyat üzrə Nobel Mükafatçılarının bütün əsərlərinin tərcümələri daxildir) və müstəqil nəşriyyat evləri və ədəbiyyat jurnalları (məsələn, Alatoran jurnalı Türkiyə, Gürcüstan və həmçinin Qərbi və Şərqi Avropa ölkələrinin ədəbiyyat jurnallarından tərcümə edilmiş nəşrlərinin "jurnalda jurnal" seriyası ilə.)

Azərbaycan Dövlət Radiosunda milli azlıqlara mənsub dillərin aylıq yayımlanma səviyyəsi aşağıdakı kimidir: hərəsi 80 dəqiqə - Talış, Kürd, Ləzgi dillərində, 160 dəqiqə Gürcü dilində, 90 dəqiqə Erməni dilində və 15 saat Rus dilində. Azərbayan Dövlət Televiziyası yayımları ayda 15 saat Rus dilində xəbərlər yayımlayır. İctimati TV etnik azlıqlar üçün proqramlara xüsusi şöbə yaradıb. 10 regional TV kanalının 25-40% proqramları Rus dilində və bəzi regionlarda Avar, Ləzgi və Tat dillərində yayımlayırlar.

Ölkənin, dünya mübadiləsinin istənilən sahəsinə inteqrasiyası prosesinə paralel olaraq İngilis və digər xarici dillərin səviyyəsi artmaqdadır. İnsanlar daha intensiv səyahət edirlər və beynəlxalq ticarət əlaqələrinə qatılırlar. Bakıda Alman, Fransız, İran, Misir, həmçinin Amerikan, Britaniya, Korea, İspan səfirliklərinin mədəniyyət mərkəzləri və uyğun səfirliklərin dəstəklədikləri digər dil mərkəzləri fəaliyyət göstərir.

Qeyd etmək lazımdır ki, illər ərzində Azərbaycan dilində yazıya edilən dəyişikliklər (sonuncu dəfə 1992-ci ildə Kiril əlifbasından Latın əlifbasına dəyişdirilmişdir) kitabxanaların xəzinələrinə və onlardan istifadə məsələlərinə ciddi təsir göstərmişdir, amma vəziyyət tədricən idarə olunur.

## 3.2. Yaradıcılıq/İstehsalat və Qorunma/Bərpa

### 3.2.1. Ölkənin mədəniyyət siyasətində və təcrübəsində (məsələn, maliyyələşdirmədə) müasir mədəniyyət yaradıcılığına verilən nisbi əhəmiyyət

**Siyasi sənədlər, büdcə təyinatları, qanun bəyənatları və nazirlik göstərişlərin (məs., çıxışlarda qeydlər) məsələlərində müasir incəsənət xadimlərinə, yaradıcılarına və istehsalçılarına olan rəsmi marağın və dəstək haqqında dəlil.**

Yaradıcı ifadənin azadlığına zəmanət (Mədəniyyət haqqında Qanunun 7-ci Maddəsi) və mədəni mənsubiyyətin qorunması və ifadəsinə hüquq (Mədəniyyət haqqında Qanunun 8-ci Maddəsində təkcə etnik mənsubiyyət deyil, həm də mənəvi, estetik və digər dəyərlərin seçimində azadlıq hüququna istinad edir) qanun tərəfindən verilir.

Mədəniyyət və Turizm Nazirliyi müxtəlif incəsənət forma və sahələrində sənət əsərlərinin dövlət komissiyası və qəbulu sistemini davam etdirir. Hər halda məlum olur ki, indi alınan və təklif edilən işlərin sayı (ən azı təsviri incəsənət və musiqidə) Sovet dövründəkindən kifayət qədər azdır. 2008-2018-ci illər ərzində filmin inkişafını və 2009-2019-cu illər ərzində teatrın inkişafını əhatə edən xüsusi Dövlət Proqramları müxtəlif tədbirlər nəzərdə tutur. Bu tədbirlərə maliyyə dəstəyi, həmçinin tədqiqat, idarəetmənin təkmilləşdirilməsi və beynəlxalq mübadilənin dəstəklənməsi aiddir. Film istehsalatı, həm filmlərin sayı, həm də onların ölkə daxilində və beynəlxalq film festivallarında ictimaiyyət tərəfindən qəbul edilməsi son illərdə zəruri dərəcədə artmışdır.

Digər tədbirlər arasında diqqət çəkənlər incəsənət sahəsində görkəmli şəxsiyyətlərə təqaüdlər, (müxtəlif kateqoriyalarda) incəsənət və mədəniyyət sahələrində xüsusi nailiyyətlərə görə Zirvə İllik Milli Mükafatı və yaradıcı birliklər vasitəsilə idarə edilən gənc sənət xadimləri üçün təqaüd planlarıdır.

### 3.2.2. Müxtəlif növ mədəni və incəsənət yaradıcılığının/istehsalatının baş verdiyi mühitin təsviri

**Rəsmi dəstəyin, yaxud onun çatışmamazlığının konkret əyani müsbət və mənfi nümunələri**

**(i) Şkala istifadəsi:**

- **Çox Faydalı**
- **Faydalı**
- **Nə Faydalı, nə də Faydasız**
- **Çətin**
- **Mənfi**

Ötən altı il ərzində Azərbaycanda təxminən 70 sənədli və 30 bədii film istehsal edilmişdir. Bu dövr ərzində Azərbaycan filmləri 40 ölkədə göstərilmiş və 100-dən çox film festivallarında iştirak etmişlər. 2011-ci il ərzində Azərbaycan gənc film yaradıcıları tərəfindən çəkilmiş təkcə qısametrajlı filmlər 25 beynəlxalq festivalda təqdim edilmişdir. Ötən il 64-cü Kann Film Festivalının yarmarkasında Azərbaycan stendi var idi.

Müasir təsviri incəsənət istehsalatına olan dövlət dəstəyinin vəziyyəti çətindir. 2007-ci ildən bəri Venesiya Biennalında ölkənin pavilyonunun olmasına baxmayaraq, heç bir təqdim olunan əsər dövlət tərəfindən maliyyələşdirilməmişdir.

Müasir təsviri sənətə sponsorluq və himayədarlıq yüksəlişdə olan bir meyldir, bu da özünü son illərdə sərgilərin və xüsusi layihələrlə bağlı sifarişlərin sayını artmasında özünü təsdiqləyir.

**(i) Təmsilçi iş adamlarının öz yaradıcı və iş mühitlərini dərk etmələri.**

Məlumat tapılmayıb.

### 3.2.3. Yaradıcılıq

**a. Yaradıcılıq mövzusu, yaxud "yaradıcılıq iqtisadiyyatı" konsepti haqqında qanuni sənədlər, bəyənatlar, yaxu rəsmi ərizələr.**

İndiyədək bu mövzuda heç bir rəsmi sənəd nə qəbul edilib, nə də üzərində işlənilib. Eyni zamanda, mədəniyyət sənayeləri məsələsi iqtisadiyyatın ayrıca sektoru kimi ən azı 2004-cü ildən etibarən Bakıda, yerli media və Yaradıcı Qruplar və CIDA (Böyük Britaniya Yaradıcılq Sənayelərinin İnkişaf Agentliyi), Design Reaktor, Planet Modulor and Multiplicities (Almaniya), Interarts Foundation (İspaniya), Yaradıcılıq Sənayeləri Agentliyi (Rusiya), Mədəniyyət vasitəsilə Demokratiya (Ukrayna) nümayəndələrinin rəhbərlik etdikləri mütəxəssis seminarlarında müzakirə edilir.

2004-2006-cı illərdə Azərbaycan Avropa Şurasının Creating Cultural Capital (CCC) (Mədəni Yatırım Yaradaraq) pilot layihəsinə qatılmışdır. 2005-ci ildə Tiflisdə UNESCO tərəfindən dəstəklənən regional seminar keçirilmişdir və iştirakçılar Azərbaycanın təkcə özəl sektoru və QHT nümayəndəliklərindən deyil, həm də Mədəniyyət və Turizm Nazirliyinin mədəniyyət siyasəti departamentinin başçısından ibarət idi. 2009-cu ildə British Council-in Yaradıcı Əməkdaşlıq proqramı çərçivəsində Azərbaycanın, Gürcüstanın və Türkiyənin metropolitan şəhərlərinin yaradıcılıq sənayeləri sahəsinin planlaşdıran bir regional layihə tətbiq edilmişdir. Hazırda inanılır ki, Mədəniyyət və Turizm Nazirliyi dövlət-özəl qurumlarının əməkdaşlığı modelinin yoxlanışı məsələsində mədəniyyət sənayelərinə dəstək haqqında bir proqramın başlanılması üçün üsullar nəzərdən keçirir.

**b. Ümumilikdə yaradıcılığın əhatə olunması və ixtisaslaşdırılmış çap və elektron media səviyyələrinin mədəniyyət sektoru peşəkarları tərəfindən qəbul edilməsi (Yüksək Maraq/Ciddi Maraq/Az Maraq/Maraqsız).**

Bu oturuşmuş bir mövzu deyildir, müntəzəm olaraq mətbuatda nəzarət, yaxud müzakirə edilir; hər halda yaradıcılığın iqtisadi potensialı və mədəniyyət sənayeləri ara-sıra müzakirələrdə və nəşrlərdə meydana çıxır.

### 3.2.4. İrs

**a. İrsə aid olan hazırki əsas məsələlər müəyyən edilmişdir**
- **Rəsmi orqanlar tərəfindən, yəni Mədəniyyət Nazirliyi, yaxud bələdiyyə orqanları**
- **İş səviyyəsindki peşəkarların nəzər nöqtəsindən**
- **Azlıqlar daxil olmaqla vətəndaş cəmiyyətlərinin nəzər nöqtəsindən**

Məlumat toplanmayıb.

**b. Hər hansı mövcud olan uyğun dəlildən rəsmi, yaxud qeyri-rəsmi istifadə edərək vətəndaş cəmiyyətinin və/yaxud icma qrup iştirakının hər hansı irsi fəaliyyət səviyyəsi (qeydə alınmış, yaxud tanınan qrupların/cəmiyyətlərin sayı, layihələrin/sahələrin sayı, uyğun informasiya bülletenlərinin mövcudluğu, internet səhifələri və s.)**

Ölkə ərazisində bu və ya digər irs qorunması və tanınması sahəsində fəaliyyət göstərən kifayət qədər geniş sayda qeydiyyatdan keçmiş QHT-lər və xüsusi təşəbbüs qrupları vardır. "Qadın, İslam və İnsan Haqları" QHT-si təhlükə altına düşmüş abidələr haqqında məlumatın yayılmasında və irsi mədəni obyektlərin dağıdılmasına və şəhər landşaftına zorla müdaxiləyə qarşı xahiş və media tədbirləri təşkilində fəaliyyət göstərir. Bu QHT "*Bizim Avropa*"-nın *(Europa Nostra)* üzvüdür və beynəlxalq forumlarda Azərbaycanda abidələrin düzgün qorunmasında qayda pozuntullarına qarşı məsələlər qaldırmağı bacarmışdır http://www.slideshare.net/heritageorganisations.eu/azerbejdzan.

Özəlliklə araşdırma və siyasi analizlə məşğul olan Milli və Beynəlxalq Tədqiqatlar Mərkəzi, Bakının şəhərətrafı ərazilərində sənayə mirasının sənədləşdirilməsi və yenidən canlanması ilə məşğuldur. Şəkidə çox fəal bir könüllü arxeoloji qrup Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun bir filialı ilə yaxın əməkdaşlıq edir. Gəncədə yerli QHT-lərin etirazı ilə orta əsrlər şəhərinin qalıqları yaxınlığında asfalt zavodunun genişləndirilməsi planının qarşısı alınıb.

Bakı-Tiflis-Ceyhan neft kəmərinin tikintisi ilə məşğul olan konsorsiumun tarixi/mədəni/arxeoloji irsin qorunması öhtəliyinə nəzarət etməkçün 2000-ci illərin ortalarında müstəqil mütəxəssislərdən ibarət xüsusi işçi qrupu yaradılmışdır.

### 3.2.5. Bərpa Resursları və Gücü

a. **Treninq, yaxud peşəkar təhsil müəssisələrinin sayı, növu və hasilatı və muzey və irs bərpaçıları üçün şərtlər.**

Dövlət İncəsənət və Mədəniyyət Universitetində muzeyşünaslıq və irsin qorunması üzrə bakalavr dərəcəsi vardır. Milli Muzey və İrsi Xəzinələrin Bərpası Mərkəzində mütəxəssislərin davamlı treninqləri aparılır.

**b. Uyğun insanların kiçik amma təmsilçi nümunəsi (nazirlik rəsmiləri, muzey müdirləri, irs planlayıcıları) tərəfindən qəbul edilən öyrədilmiş bərpaçılar təchizatının ehtiyacı ödəməsi dərəcəsi.**

Hal-hazırda ehtiyacı ödəmir.

**c. Marağında olan tərəflərin (nazirlik rəsmiləri, muzey müdirləri, irs planlayıcıları) bərpaçıların treninqi (treninqin keyfiyyəti, treninqin mövcudluğu) onların maraq dairəsində olması, yaxud bu haqda narahatçılıq dərəcəsi.**

Əsas abidələrin bərpası işləri üçün beynəlxalq ekspertiza cəlb edilir - Almaniyadan, İtaliyadan, Norveçdən və digər ölkələrdən gələn mütəxəssislər Qız Qalasının, Şirvanşahlar Sarayının, Möminəxatun Türbəsinin,

Zeynəlabdin Tağıyev malikanəsinin, Şəki Xan Sarayının, Kiş kəndindəki Ms. Əlişə Kilsəsinin bərpası üzərində işləyiblər.

2008-ci ildə Bakıdakı muzey müdirləri Ward Mintz, ABŞ oturumu olan Mərkəzi və Şərqi Avropada İncəsənət və Mədəniyyət Fondu tərəfindən Azərbaycanda muzey peşəkarlarının treninqləri üçün ən təcili ehtiyac duyulan sahələr haqqında araşdrma apardıqları zaman, əşyaların, xüsusilə də tekstilin saxlanılması və bərpasını xatırlatdılar. 2009-cu ildə, tekstil saxlanılması üzrə aparıcı beynəlxalq mütəxəssis Patricia Ewer Bakıya gəlmiş və yerli muzeylərlə birgə ustad dərslərinə rəhbərlik etmiş və saylarla fərdi məsləhətləşmələr aparmışdır. Təəccüblüdür ki, aşkar olunmuşdur ki, yerli mütəxəssislərin tekstil saxlanılmasında əsrarəngiz bacarıqları var imiş və arada olan boşluq büdcə məhdudiyyətləri səbəbindən mövcud olmayan yeni alətlərin, cihazların və kimyəvi maddələrin əldə olunmaması səbəbindən imiş.

### 3.2.6. Mədəni İfadə Müxtəlifliyinin Qorunması və Dəstəklənməsi haqqında UNESCO Sazişi

**a. Ölkədə məlumatlıq səviyyəsi (uyğun mədəniyyət planlaşdırıcıları və vəzifəcə yüksək mədəni təcrübəçilərinin kiçik bir nümayəndə nümunəsinin məhdud sorğu/müsahibə metodu tərəfindən qiymətləndirilmiş).**

Azərbaycanın Birinci Xanımı Xm. Mehriban Əliyeva UNESCO Xoşməramlı Səfiri fəxri titulunu daşıyır və bu beynəlxalq təşkilatın fəaliyyətində çox fəal iştirak edir. Xm. Əliyevanın başçılığı altında UNESCOnun sözügedən Sazişi həm 2005-ci ildə dünya üzrə müzakirə zamanı, həm də 2010-cu ildə Azərbaycan Milli Məclisi tərəfindən təsdiqi dövlət mediasıda geniş yayılmışdır.

**b. Mədəniyyət Nazirliyinin, digər halda etməyi düşünmədiklərini, Sazişin imzalanması ilə həmin tədbirlərin görülməsinə dair MN tərəfindən verilmiş nümunələr.**

Bəziləri bu sənədi daha çox təşəbbüslərin bəyənatları kimi qəbul edəcək, nəinki, praktiki əməl üçün bilavasitə bələdçi kimi.

**c. Rəsmi qanuni sənədlər, yaxud bəyənatlarda Saziş haqqında xatırlatmaların sayı/səviyyəsi.**

Baxın 3.2.6.a

Yerli mətbuatın bildirdiyinə görə, 20 May - Beynəlxalq Dialoq və İnkişaf üçün Mədəni Müxtəliflik Günü Azərbaycanda 2010-cu ildən etibarən qeyd olunur. 2010-cu ilin iyulunda Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə Mədəniyyət Tədqiqatları üzrə Dövlət Forumu "Mədəni Müxtəliflik İctimai-siyasi Dəyər kimi" mövzusunun əsasını qoymuşdur.

## 3.3. Mədəni Təminat/Araşdırma/Peşəkar Treninq və Bacarıq Ötürülməsi/Yayma/Bağlantı/Rəqəmsallaşdırma

### 3.3.1. Ümumi Mühit

**a. İncəsənət araşdırmasına qatılan hər hansı təşkilatın, institutun və s. sayı, növü, ölçüsü və siyahısı.**

Mədəniyyət sahəsində əsas milli elmi araşdırma mərkəzi Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutudur. Mədəniyyət və incəsənət təhsili verən bütün universitet və ali məktəbləri, əsas muzeylər və kitabxanalar araşdırma şöbələrinə və laboratoriyalarına malikdirlər. Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyət, Muzeyşünaslıq, Folklor sahələrində Araşdırma və Metodoloji Mərkəzi kimi təcrübəyə meylli tədqiqatlar üçün xüsusi nəşri var. Təcili inkişaf fazasında ideya belədir ki, yeni müəssisənin müstəqil statusunu davam etdirməkdənsə, onlar, Mədəniyyət və Turizm Nazirliyi tərəfindən dövlət subsidiyası ala biləcək Mədəniyyət Tədqiqatları İnstitutuna çevrilsin.

**b. Məhdud, amma təmsilçi müsahibə metodu ilə gənc mədəniyyət peşəkarları (35-dən aşağı) tərəfindən mədəniyyət və incəsənət tənqidinin və debatının dərki səviyyəsi.**

Məlumat toplanmayıb.

### 3.3.2. Peşəkar Treninq

**a. Mədəniyyət və Təhsil Nazirlikləri tərəfindən verilən məlumat vasitəsilə peşəkar incəsənətin və mədəniyyət təhsilinin təminat və keyfiyyət səviyyəsi.**

Bütün "klassik" incəsənət və mədəniyyət peşəkar ixtisaslaşmaları aşağıdakı əsas ali təhsil müəssisələrində dərəcə verilməsi ilə mövcuddur: Dövlət İncəsənət və Mədəniyyət Universiteti, Bakı Musiqi Akademiyası, Milli Musiqi Konservatoriyası, Dövlət Rəssamlıq Akademiyası, Dövlət Memarlıq və İnşaat Mühəndisliyi Universiteti. Əlavə olaraq, mədəniyyət sektoruna aid olan bəzi diplomlar həmçinin Bakıdakı Dövlət Pedaqoji Universitetində, Naxçıvan Dövlət Universitetində (musiqi müəllimliyi, incəsənət müəllimliyi), Xəzər Universitetində (dizayn) və s. əldə edilə bilər. Hər halda yeni peşələrə yaranan tələbat müvafiq olaraq ünvanlandırılmır - məsələn, səs mühəndisliyi üzrə peşəkar diplomun əldə edilməsi üçün heç bir seçim mövcud deyil.

Ola bilər keyfiyyətin yaxşı göstəricisi, Azərbaycanın əsas incəsənət və mədəniyyət universitetlərinin məzunlarının çoxunun xarici ölkələrdə özlərinə iş tapa bilmələridir - Azərbaycandan gedən rejissorlar, aktyorlar və musiqiçilər Rusiyada, ABŞ-da, Kanadada, Türkiyədə, Almaniyada, İtaliyada və sş ğlkələrdə işləyirlər. Qeyd etmək lazımdır ki, Azərbaycandan gedən teatr aktyorları var ki, onlar hazırda Finlandiyada (fincə oynayaraq) və Yunanıstanda (yunanca oynayaraq) tanınırlar.

**b. Bu sahədə məlum beynəlalq linklərin sayı, məsələn Erasmus tipli linklər vasitəsilə.**

Hər şeydən əvvəl Azərbaycanlı gənclərin 2007-2015-ci illərdə xaricdə təhsil almaqları üçün hazırda dövlət proqramı var. Proqramın prioritetlər siyahısında bakalavr pilləsi üçün: muzeyşünaslıq, dizayn və qrafika, studiya və səhnə səs sistemləri, fim və ifa incəsənətinin istehsalatı; magister pilləsi üçün: cizgi filmləri və kompüter qrafikləri üçün rejissorluq, bədii film rejissorluğu, səs mühəndisliyi, mədəni irsin qorunması, səhnə dekorasiyası və rekviziti artisti, memarlıq abidələrin bərpası. Xarici səfirliklər və nüfuzlu institutlar vasitəsilə təşkil olunan ikitərəfli proqramlar var - misal üçün, DAAD müntəzəm olaraq bəstəkarlara və klassik musiqi ifaçılarına təqaüd verir, Bergen Konservatoriyası ilə Bakı Musiqi Akademiyası arasında Azərbaycandan Norveçə getmək üçün simli alət ifaçıları üçün çoxillik razılıq, və s. Azərbaycanlı tələbələrin artan sayı, öz cəhdləri vasitəsilə təqaüdlər tapırlar, yaxud öz ailələrinin dəstəkləri vasitəsilə xaricdə oxuyurlar və onların sayı kifayət qədər çoxdur.

Azərbaycan və digər ŞəT ölkələri haqqında maraqlı statistik məlumatları aşağıdakı hesabatda əldə etmək olar:
http://eap-mobility.pl/static/documents/Lungu_Irina_Current_state_of_play.pdf.

### 3.3.3. İnternet İstifadəsi və Bağlantı

**a. İnternet bağlantısı və istifadəsinə aid istənilən statistikanın mövcudluğu.**

Baxın www.internetworldstats.com: 2010-cu ilin iyun ayına görə 3,689,000 istifadəçi var ki, bu da ölkə əhalisinin 44.4%-ni təşkil edir. Sosial bağlantı üçün bir alət olan Facebook istifadəçiləri əsaslı surətdə artmaqdadır. 2010-cu ilin Avqust ayına görə ölkədə 198,340 Facebook istifadəçisi olub, 2011-ci ilin Dekabr ayına görə bu 604,040 istifadəçi və 2012-ci ilin Dekabr ayına görə bu say Facebook istifadəçi sayı 1 milyona çatmışdır:
(baxın http://www.socialbakers.com/blog/1278-december-2012-social-media-report-facebook-pages-in-azerbaijan).

**b. Yerli gəlir səviyyələrinə görə bağlantı üçün xərclər**

- **Evdə**

Limitsiz bağlantı üçün aylıq 18 Avrodan başlayır.

- **İnternet kafedə istifadə zamanı**

Saatı 0.60 Avrodan başlayır.

**c. Bağlantıda artma dərəcəsini göstərən istənilən mövcud statistika, yaxud məlumat.**
Baxın: http://opennet.net/research/profiles/azerbaijan

**d. İstənilən "rəqəmsal bölgü"nü (yəni, varlı-kasıb, yaxud şəhər-kənd fərqi) ehtiva edən istənilən statistika, məlumat, yaxud sübut kimi baş vermiş əhvalat**

GINI indeksinə görə, Azərbaycan 134 ölkə arasında 81-ci yerdədir.
http://www.exchangerate.com/statistics-data/distribution-of-family-income-answers.html

**e. Mədəniyyət sahəsi və trendləri haqqında istənilən mövcud statistika, təxmin, yaxud araşdırma.**

Milli İnternet səhifələrinin illik mükafatları Netty və Millinet-in mədəniyyət/turizm üçün xüsusi tematik nominasiyası var. www.ilk10.az and www.kataloq.net saytlarında Azərbaycanda istehsal olunan və xidmət göstərən internet səhifələrinin reytinqini görmək olar.

### 3.3.4. Rəqəmsallaşdırma Layihələri

**Rəsmi dəstək vasitəsilə həyata keçən əhəmiyyətli rəqəmsallaşdırma layihələrinin nümunəvi siyahısı və sayı (məsələn, milli elektron kitabxnanın yaradılması, dövlət muzeyinin külliyyatının rəqəmsallaşdırılması, milli külliyyat, yaxud arxivlərdən istifadə edərək virtual sərgi, və sairə).**

www.kitabxana.net - QHT-lərə Dəstək üçün Dövlət Şurası tərəfindən dəstəklənən, Yeni Yazıçılar və Sənət Xadimləri Birliyi tərəfindən 2009-cu ildən tətbiq edilən layihəyə - Milli Virtual Kitabxanaya, geniş e-kitabxana, e-zinlərə və yazıçıların bloqlarına istinadlar daxil olmaqla, müxtəlif çeşidli bölmələr aiddir.

Musiqi Dünyası - www.musigi-dunya.az, musiqişünaslıq sahəsi üzrə eyni adlı jurnalın nəşriyyatı ilə məşğul olan şirkət, səs/vizual arxivlərinin, partiturların rəqəmsallaşdırılmasında, milli musiqiyə, teatra, ədəbi irsə həsr edimiş internet səhifəsinin istehsalatında xeyli səriştə nümayiş etdirmişdir. Xüsisi layihələrə Azərbaycan etnik azlıqlarının musiqi folklorunun antologiyası, 1920-ci illərdən 1980-ci illərədək tarixi şəxsiyyətlərin səslərinin külliyyəti daxildir. Britaniya Kitabxanasının Təhlükə Altında Olan Arxivlər Proqramından əldə edilmiş qrantla Prof. Tariyel Məmmədov Azərbaycan xalq və ənənəvi musiqisindən ibarət 1903-cü ildən 1930-cu ilədək 100 qramofon diski külliyyətinin rəqəmsallaşdırılması üzərində işləmişdir.

“Rəqəmli Dövr” Multimediya şirkəti 2000-ci ildən bəri saylarla internet səhifələri, CD-ROM-lar (virtual turlar və animasiyalar kimi interaktiv elementlərlə) və Azərbaycanın muzeylərinə və irsi abidələrinə aid rəqəmsal şəkil arxivləri yaratmışdır.

## 3.4. Müyəssərlik və Təhsil

### 3.4.1. Giriş

**a. Mədəniyyətə müyəssər olunması və istənilən tərzinə aid istənilən qanuni tədbir, yaxud müzakirənin əyani sübutu (yəni, mədəniyyət hüquqları haqda, mədəniyyət və incəsənət tədbirlərinə giriş və bilet qiymətləri haqqında, və s.)**

Mədəniyyət hüquqlarının qorunması Mədəniyyət haqqında Qanuna daxildir (II Fəsil, 6-cı maddə) (http://e-qanun.az/print.php?internal=view&target=1&docid=4272&doctype=0)

Bakı muzeyləri hərbçilər və müharibə veteranları, əlillər, Milli Qəhrəmanlar, uşaq evindən gələn uşaqlar üçün pulsuzdur. Rayonlarda muzeylərin əksəriyyəti isə ümumiyyətlə qiriş haqqı qoymur. Məktəblilərdən ibarət qruplar üçün teatrlara giriş zamanı xüsusi bilet endirimləri mövcuddur. Məsələn, yerli muzeylərin həmçinin gecə vaxtı açıq olduğu gün - 18 May - Beynəlxalq Muzeylər Günü kimi istənilən cür qonaq üçün xüsusi "açıq qapı günləri" vardır və muzeylər həmin günlərdə öz qonaqlarına xüsusi turlar, diskusiyalar və ifa incəsənəti tədbirləri təklif edirlər.

**b. Mədəniyyət və incəsənət tədbirlərinə girişə aid mədəniyyət peşəkarlarının mədəniyyət və incəsənət tədbirlərinə kiçik bir təmsilçi nümunəsinin nəzərinə çarpan əsas məsələlərin siyahısı. (Bu məsələlərə tədirlərin çatışmazlığı, qiyməti, marağın çatışmazlığı, zəif marketinq, şəhər-kənd bölgüsü məsələləri, əsas tədbir yerlərində uyğun olmayan proqramlaşdırma, faydasız açılma saatları, və s. aid edilə bilər).**

Məlumat toplanmayıb.

### 3.4.2. Təhsil

**a. İncəsənət təhsilinin məktəblərdə əsas tədris planının bir hissəsi kimi bəzi formaları haqqında dəlil.**

Azərbaycanın ibtidai və orta məktəblərinin əsas tədris planlarında rəsm və musiqi/xor oxuma dəsrləri tədris edilir, halbuki, dərslərin keyfiyyəti və mövcud öyrətmə resursları həmişə ictimai debatın bir mövzusudur. İncəsənət təhsilinin böyük hissəsi məktəblərin əlavə tədris fəaliyyəti vasitəsilə, yaxud dövlət tərəfindən dəstəklənən, yaxud özəl musiqi məktəbləri, rəqs ansamblları, mahnı qrupları, xorlar, rəsm və peşə kursları, teatr studiyaları və s. ibarət geniş şəbəkə vasitəsilə həyata keçirilir.

Bakı Təhsil və Xidmətzamanı Treninq İnstitutu təzəlikcə dini və mədəni müxtəliflik kontekstindəki təhsil vasitəsilə qarşılıqlı hörmət və dözümlülüyü oyatmaq üçün innovativ metodlar və alətlər haqqında seminar təşkil etmişdir (Avropa Şurasının dəstəyi ilə). Bu onu göstərir ki, məktəb təhsilində interkulturalizmə lazımlı mənbə kimi yanaşılır.

**b. Tipik məktəb kontekstində təqdim edilən istənilən incəsənət fəaliyyətinə aid nümunələr.**

Bu fəaliyyətin yaxşı nümunəsi, vahid şəkildə ekoloji və mədəni təhsili birləşdirən Ekosfer təşkilatıdır (www.ekosfera.az). Məktəblilər üçün külli miqdarda iştirakçı (participatory) təhsil proqramları və turları təşkil etmişdir. Bakının ətraf ərazisində yeni açılmış Qala qəsəbəsindəki Mərkəz mədəni irs, ekologiya üzrə peşə təhsili və treninqlərə yeniyetmələri qəbul etmək üçün yaxşı təchizatı vardır.

## 3.5. İştirak və Auditoriya İnkişafı

### 3.5.1. İştirak Statistikası

**a. Teatr, yaxud kino ziyarətçilərindən tutmuş mədəniyyət klublarının sayınadək, və s. olan bir diapazonda istənilən cür mədəniyyət və incəsənətdə iştiraka aid mövcud statistika.**

Bütün mövcud məlumat Xülasənin Ölkə faylında göstərilmişdir:
http://www.culturalpolicies.net/web/azerbaijan.php?aid=821

**b. İştiraka aid tendensiyanın təzahürü, yaxud nümunələri, məsələn, mədəniyyət sektorunun müxtəlif fəaliyyətində davamiyyət və iştirakın müşahidə edilə bilən artımı və azalması.**

Kitab satışında (məsələn, "Əli və Nino" kitab dükan/kafeləri şəbəkəsinin ticarət uğuru) və müasir ədəbiyyata maraqda (həm milli, həm də tərcümə edilmiş) müsbət artım tendensiyası vardır.

Musiqi tədbirlərinə ziyarətçilərin sayı artır (ən azı əsas festivallar dövründə bilet satışları artır).

### 3.5.2. Auditoriya İnkişafı

**Teatrların, muzeylərin, festivalların əsas fəaliyyətinin bir hissəsi kimi auditoriya təliminə və təbliğat proqramlarına aid və bu fəaliyyətin hansı dərəcədə inkişaf etmiş olduğunu göstərən bəzi fikirləri verən statistika, yaxud nümunələr.**

Auditoriya inkişafının və təbliğat işlərinin bütün ənənəvi formaları, hər kəsin mədəniyyətə giriş üçün xüsusi qayğı göstərən Sovet sistemindən mənimsənilmişdir. Bütün dövlət muzeyləri, teatrlar, konsert zalları hələ də məktəblər və universitetlərlə işləyir, halbuki, bu günlərdə istənilən növ sənayə müəssisəsi ilə əlaqə daha azdır. Təbliğat proqramlarının yeni formaları bəzi mədəniyyət təşkilatları tərəfindən təsadüfi olaraq

təqdim edilir, amma lazım olan maliyyənin çatışmazlığı və eksperimentlərə könülsüzlük səbəbindən demək olar ki, nə metodoloji baza, nə də ən yaxşı təcrübələrin rəğbətləndirilməsi mövcuddur. Bir neçə yaxşı nümunə festivallardan gəlir - Bakı Caz Festivalına festivaldan əvvəl və festival zamanı könüllülük etmək üçün geniş tələbə qrupunu dəvət etməklə gənc auditoriyanın cəlb edilməsi, yaxud Qəbələ Musiqi Festivalında Londondan gələn Kral Filarmonik Orkestrininin solistləri ilə Bakının ətraf ərazilərindəki bir uşaq evindən gələn gənc mis nəfəsli alətlər orkestri musiqiçilərini bir araya gətirən xüsusi icma layihəsi.

# 4. Ölkəyə edilən RMBAH Araşdrma Səfərinin Əsas Nəticələri

29 Oktyabr 2011-ci ildən başlayaraq, RMBAH, Proqram üçün əsas tərəfdaş əlaqələri yaratmaq və ölkədaxili və regional səviyyədə gücləndiriləcək mədəniyyətin xüsusi siyasət sahələrinin identifikasiyası prosesini başlamaq üçün Azərbaycan, Gürcüstan, Ermənistan, Belarusiya, Moldova və Ukraynaya araşdırma səfərləri etmişdir. Fəaliyyət sahəsinə, əsas hakimiyyət və vətəndaş cəmiyyəti tərəfdaşları ilə birgə dəyirmi masa müzakirələri, mədəniyyət sektorunda əsas fəallarla görüşlər, Proqramın təqdimatları və Şərq Tərəfdaşlığı ölkələrinin mədəniyyət siyasəti üzrə ilkin tədqiqatların təkmilləşdirilməsi üçün ümumi məlumatın toplanması daxil idi. Səfərlərin nəticələri və sonrakı araşdırmalar 2012 - Mart 2015 dövrü ərzində RMBAH tərəfindən tətbiq ediləcək müəyyən edilmiş prioritet sahələrdə bacarığın artırılması fəaliyyəti haqqında təkliflər üçün bazanı formalaşdırmışdır.

2011-ci ilin oktyabrnNoyabr aylarında RMBAH araşdırma səfəri Heyət Başçısı Cb. Luçano Qloor, Bacarığın Artırılması Mütəxəssisi Xm. Tetiana Biletska, İnformasiya və Rabitə Meneceri Xm. Elena Palivoda və Layihə və Monitorinq Meneceri Xm. Oksana Muzıçuk tərəfindən edilmişdir.

Səfər zamanı heyət, dövlət və özəl sektorlardan və vətəndaş cəmiyyəti təşkilatlarından ŞəT Mədəniyyət Proqramının əsas milli tərəfdaşlarının 40-dan çox nümayəndələri, həmçinin ölkəyə səfər etmiş AB Nümayəndə Heyəti və Azərbaycanda fəaliyyət göstərən donor müəssisələlə görüşmüş, müsahibələr almış və əlaqələr yaratmışdır.

Bakıdakı mədəniyyət sahəsində qanun islahatlarının ehtiyatları və prioritetləri üzrə əsas tərəfdaşlarla dəyirmi masa müzakirəsi ümumilikdə 20 nəfərdən çox iştirakçı toplayaraq səfərin əsas hadisəsinə çevrilmişdir. Dəyirmi masaya Azərbaycana səfər etmiş AB Nümayəndə Heyətinin Əməliyyət Bölməsinin Başçısı Cb. Federiko Berna və Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Beynəlxalq Təşkilatlarla və Proqramlarla Əməkdaşlıq Bölməsinin Başçısı Cb. Vasif Eyvazzadə tərəfindən sədrlik edilmişdir. Nazirlik, həmçinin, müzakirədə aktiv iştirak edən Nazirliyin digər əsas söbələrinin müdirləri tərəfindən təmsil edilmişdir.

Cb. Eyvazzadə, AB Üzv Ölkələri ilə və regional müstəvidə mədəniyyət sektorinda və ümumilikdə əməkdaşlıq layihələrinin Azərbaycan üçün xüsusilə vacibliyini xüsusi olaraq qeyd etdi. O, bu fikri, artıq mövcud olan layihələrin, o cümlədən, Avropa Şurasının *Kiyev Təşəbbüsündən* əldə olunan nəticələrlə əsaslandırdı. Cb. Eyvazzadə daha sonra 2008 Ehtiyaclar Qiymətləndirilməsində[1] Nazirliyin xüsusi marağı olduğunu bildirdi. Azərbaycan, özünü müxtəlif mədəniyyətlərin görüş yeri kimi müəyyənləşdirərək, təzəlikcə yüksək səviyyəli beynəlxalq tədbirlərə, o cümlədən 2011-ci ilin Aprel ayında UNESCO, BMT Sivilizasiyalar Alyansı, Avropa Şurası, ISESCO Şimal-Cənub Mərkəzi və Dünya Turizm Təşkilatı tərəfindən birgə həyata keçirilmiş Mədəniyyətlərarası Dialoq mövzusunda Birinci Dünya Forumuna ev sahibliyi etmişdir. Nazirlik, Şərq Tərəfdaşlığı Mədəniyyət Proqramı kontekstində təşəbbüslərin və Azərbaycanla Avropa Birliyi arasında əməkdaşlığın vacibliyini xüsusi vurğuladı.

RMBAH Şərq Tərəfdaşlığı Mədəniyyət Proqramını, o cümlədən proqramın məqsədlərini, tapşırıqlarını və əsas komponentlərini təqdim etdi. Xüsusi diqqət RMBAH-ın, layihənin həyata keçiriləcəyi zaman istifadə ediləcək alətlər və iş vasitələrinin izahatına yetirilmişdir:

- *Mədəniyyət Siyasətinin Tədqiqatı və Müayinəsi* fəaliyyəti altında araşdırma prosesi;
- 2013 və 2014-cü illərdə RMBAH tərəfindən təşkil olunacaq *Mədəniyyət Siyasətinin Mübadiləsi Seminarları və Təlimləri* regional bacarığın artırılması fəaliyyətləri;
- ŞəT Mədəniyyət Proqramı daxilində layihələrin həyata keçirilməsində qrantlar almaqa dəstək;
- Proqramın nəticələrinin yayımlanmasını və görünməsini təmin edən əlaqə və şəbəkələnmə.

İştirakçılar həmçinin, RMBAH-ın *Şərq Tərəfdaşlığı Orqanlarına Texniki Yardım* fəaliyyəti çərçivəsində mədəniyyət və qanuni islahat məsələləri üzrə ölkə xarakterli xüsusi texniki yardım almaqda dövlət orqanları üçün imkanlar haqqında məlumatlandırılmışdırlar.

[1] 2008 Sentyabrda AŞ-a təqdim edilmiş ENPI Şərq Regional Əməkdaşlığının Dəstəklənməsi haqqında Hesabat

Son üç-beş ildə ölkədə mədəniyyətin və mədəni inkişafların əsas xüsusiyyəti haqqında fikirlərini bölüşdükləri müddətdə, Azərbaycanın mədəniyyət sektorunun nümayəndələri dövlət, yaxud yerli (bələdiyyə) səviyyəsində mədəniyyət sektorunda, yaxud onun bəzi alt-bölmələrində inkişaf etdirilən, yaxud, daha da pisləşən, yaxud narahat edən bir məsələyə çevrilən müxtəlif şeylər haqqında danışdılar.

Mövcud peşəkar təcrübə, fərdi sektor nümayəndələrinin bilik və bacarıqları, mədəni dialoq və tərəfdaşlıq, mədəniyyət sahəsində təcrübə mübadiləsi və birgə fəaliyyətlər, həmçinin mədəniyyət sahəsində insanların açıqlığı və tolerantlığı Azərbaycanda mədəniyyət sektorunun müsbət dəyişiklik mənzərəsinə səbəb olan münasib faktorlar kimi qəbul edilmişlər.

Dövlət mədəniyyət müəssisələrinin texniki təchizatı və avadanlıqlarının aşağı səviyyədə olması, tədqiqatçılar üçün də daxil olmaqla, müasir texnologiyalara və resurslara girişin çatışmazlığı, həmçinin mədəniyyətə aid fəaliyyət üçün uyğun olan açıq məkanların sayının məhdud olması və mədəni xidmətlərin aşağı səviyyədə olması ölkənin mədəni sektoruna əsas təhlükələr kimi qeyd edildi.

Mədəniyyət sektorunun islahatı və gücləndirilməsi üçün ehtiyaclar prioriteti, həmçinin regional və dövlət siyasi təşəbbüsləri və mədəniyyət, təhsil və insan inkişafı sahələri kimi sahələrə aid olan müxtəlif AB və beynəlxalq proqramlar müzakirədə qeyd edildi.

Azərbaycanın dövlət və özəl mədəni təşəbüskarlarının nümayəndələri, modernizasiya və müsbət dəyişiklikdə sektorun şansını artırmaq üçün mədəniyyət qanunvericiliyi və siyasəti tərəfindən ünvanlanacaq əsas ehtiyaclara aid olan aşağıdakı məsələləri qeyd etdilər:

- Xüsusilə mədəniyyət haqqında qanunlarda, mədəni irsin və intellektual əmlak hüquqlarının qorunmasında sektor qanunvericiliyinə yenidən baxış və dəyişiklik;
- Təşəbbüskarlar və tələbələr üçün mədəniyyət sektorunda peşə treninqlərinin və təhsil proqramlarının inkişafı
- Milli mədəniyətin tarixi haqqında təlimat kitabçasının hazırlanması; tədris planını Avropa standartlarına uyğun islah etmək;
- Mədəniyyət sektorunun idarəçiliyində demokratiya və mədəniyyət hüquqlarına əsaslanaraq yeni yanaşmaların və standartların təqdimatı;
- Milli mədəniyyətin və irsin dirçəlməsi, qorunması və rəğbətləndirilməsi; mədəni irsin turizm vasitəsilə aşılanması.

Həm Dövlət, həm də özəl mədəniyyət sektorunun fəallarının peşəkarların təlimi ölkənin mədəniyyət sektorunun üstün ehtiyacları arasındakı kimi qeyd etdilər. Xüsusi diqqət peşəkar bacarıqların inkişafına, daha dəqiq desək, mədəni irs seqmentində çalışanlar üçün muzey menecmenti/inkişafı, irs bərpasına cəmlənmişdir.

Aşağıdakı məsələlər, siyasət tədqiqatın başqaları ilə yanaşı diqqət mərkəzində olması, ölkəni maraqlandıran vacib məsələlər kimi qeyd edildi:

- Beynəlxalq mədəni əlaqələrin dinamikası (əməkdaşlıq, şəbəkələşmə, regional təşəbbüslər) – həm dövlət tərəfindən maliyyələşdirilən, həm də müstəqil;
- Ölkə üçün mədəni diplomatiya konsepsiyası, ölkə üzrə və yerli mədəni brendlərin istifadəsi;
- Mədəniyyət və turizm sektorları arasında əlaqələr və turizmin rəğbətləndirilməsi üçün maddi və qeyri-maddi mədəni irsin istifadəsi;
- Alternativ/*underground* mədəni fəaliyyətlər/istehsalatlar – qanun müdaxiləsi və ictimai nəzərə çarpma və giriş səviyyəsi.

RMBAH dəyirmi masa və işgüzar görüşlərin iştirakçıları həmçinin ŞəT Proqramının uğuru haqqında proqnoz və ən vacib faktorlar və yerli tərəfdaşlar arasında sahiblik hissinin inkişafı haqqında öz fikirlərini bildirdilər.

Buna istinadən, Mədəniyyət və Turizm Nazirliyi RMBAH-a, ŞəT ölkələrinin hər birinin xüsusiyyətlərini nəzərə almadan tərəfdaş ölkələrin dövlət mədəni siyasətlərinə və mədəniyyət sektorunun qiymətləndirilməsinə "bəsit yanaşma"dan imtina etmələrini məsləhət gördü.

RMBAH-ın ölkəyə tədqiqat səfərindən sonra, səfər zamanı tanış olduğu bütün yerli əməkdaşlar və dəyirmi masa iştirakçıları on-line sorğuları doldurmaqla mədəniyyət siyasətinin və yerli mədəniyyət sektorunun SWOT analizinə töhfə vermələrinə dəvət olunmuşlar. SWOT analizinə aid ətraflı məlumat hesabata 1-ci Əlavədə təqdim edilib.

Azərbaycanın mədəniyyət sektorunda ehtiyacların prioriteti və digər tərəfdaş ölkələr, həmçinin Proqramın irəliləyişi vəziyyəti haqqında ətraflı məlumat almaq üçün, lütfən həmçinin Regional Tədqiqat Hesabatına müraciət edin (Bölmə 4: *RMBAH-ın Tədqiqat Səfərinin Əsas Tapıntıları,* Əlavə 3: Yerli Tərəfdaşların Mədəniyyət Siyasəti və Ehtiyaclar Prioritetinin SWOT Analizi).

## Mənbələr Siyahısı

### Çap/elektron nəşriyyatları


1. Bakı: Azərbaycan Respublicası Mədəniyyət Nazirliyi, 2003
   ISBN 9952-21-020-5

2. Avropada Mədəniyyət Siyasətləri və Trendlərinin Xülasəsi. Azərbaycanın Mədəniyyət Siyasəti Faylı: http://www.culturalpolicies.net/web/azerbaijan.php

3. Azərbaycanda Mədəniyyət siyasəti: Avropa müfəttişləri sərbəst qrupunun hesabatı
   Maria Berza, Strasburq: Avropa Şurası 2003 (STAGE Layihəsi)
   CDCULT(2002)28B [PDF]

4. Azərbaycanda Mədəniyyət siyasəti: Azərbaycan mütəxəssislərinin və Avropa müfəttişləri sərbəst qrupunun hesbatı, Bakı: Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, 2003
   ISBN 9952-21-020-5

5. Azərbaycanda Mədəniyyət siyasəti: Mədəniyyət Siyasəti haqqında Azərbaycan Respublikasının dövlət hesabatı, Strasburq: Avropa Şurası 2002 (STAGE Layihəsi)
   CDCULT(2002)28A [PDF]

6. Tarixi Şəhərlərdə Mədəni İrsin Bərpası. Azərbaycanın İrsin Qiymətləndirilməsi Hesabatı. 2010: http://www.coe.int/t/dg4/cultureheritage/cooperation/Kyiv/PP2/KI_2010_066-PP2AzerbaijanHAR.pdf

**Veb-səhifələr**


www.azstat.org
http://www.coe.int/t/dg4/cultureheritage/culture/Reviews/
http://cssn.gov.az
http://www.culturalpolicies.net/web/countries.php
http://e-qanun.az/print.php?internal=view&target=1&docid=4272&doctype=0
http://eap-mobility.pl/static/documents/Lungu_Irina_Current_state_of_play.pdf
www.ekosfera.az
www.mct.gov.az
kultaz.com
www.kultura.az
http://www.slideshare.net/heritageorganisations.eu/azerbejdzan
http://www.preslib.az/melum.html
http://www.kitabxana.net/
www.kulis.az
http://www.icom.azeurotel.com
www.musigi-dunya.az
http://azeriart.net/
www.bakupages.com
www.citylife.az
https://wcd.coe.int/ViewDoc.jsp?Ref=PR304(2011)&Language=lanEnglish&Ver=original&BackColorInternet=F5CA75&BackColorIntranet=F5CA75&BackColorLogged=A9BACE
www.disput.az
http://www.edu.gov.az
www.internetworldstats.com
http://www.socialbakers.com/blog/1278-december-2012-social-media-report-facebook-pages-in-azerbaijan
http://opennet.net/research/profiles/azerbaijan
http://www.exchangerate.com/statistics-data/distribution-of-family-income-answers.html
www.ilk10.az
www.kataloq.net
www.kitabxana.net

## Əlavə 1. Azərbaycan Mədəni Fəaliyyət Sahələrinin Prioritet Ehtiyacları və Mədəniyyət Siyasətinin Dövlət Tərəfdaşları tərəfindən SWOT Qiymətləndirmə

***Bu əlavə üçün hesabatın ingilis dilindəki orijinal mətninə baxın.***

## Əlavə 2. Zəmin Məlumat – Azərbaycan Tarixi Kontekstdə[2]

AB üzv ölkələri tərəfindən Şərq Tərəfdaşlığı ölkələri az tanınırlar və bunun nəzdində də gərək olduğundan az qavranırlar. Azərbaycanın vəziyyətində isə doğrudur ki, son zamanlar ölkənin fəal mədəni diplomatiya strategiyası onun özünü beynəlxalq işıqlandırmaq üçün ciddi cəhdlər etmişdir. Başqa ölkələr kimi, onun da tarixi mürəkkəb olub. Bu dörd əsas elementlə xarakterizə edilir: Türk etnik kökləri, İslam ənənələri, Avropa dəyərləri (həm Rusiyanın imperiya müstəmləkəçiliyi, həm də 19-cu əsrdə qara qızıl canlanması vasitəsilə "beynəlxalqlaşma" vasitəsilə) və öz ənənələrinə malik mühüm etnik azlıqlar.

Azərbaycanın mədəniyyət və mədəni inkişaf mövzusunda bəzi çətinliklərin kontekstini, təbii ki, həmçinin siyasi konteksti anlamağa qadir olmaqçün, müstəqil Azərbaycan Respubikasının 1991-ci ildəki föqəladə vəziyyətinədək onun haqqıda məlumatlanmaq vacibdir.

Azərbaycan Xəzər dənizi sahilində, Şərqi Avropa və Qərbi Asiyanın arasındakı Cənubi Qafqazda yerləşir. Ölkə Şimalda Rusiya Federasiyası (Dağıstan) ilə, Şimal-Qərbdən Gürcüstanla, Qərbdən və Cənub-Qərbdən - ən uzun sərhəd olan - Ermənistanla, Cənubdan İranla və Şərqdən Xəzər dənizi ilə həmsərhəddir. Ölkənin həmçinin, şərqdən Ermənistanla əhatə olunmuş Naxçıvan Muxtar Respublikasında Türkiyə ilə on kilometr sərhəddir. Ölkə, ərazisinə görə Şotlandiyadan bir qədər böyuükdür və əsasən dağlarla əhatə olunmuşdur. Sərhəddi daxilində sub-tropikdən orta iqlim arasında dəyişən (deyilənə görə, on bir məlum iqlimdən doqquzu ölkədə mövcuddur) və biomüxtəliflik zənginliyi barədə xəbər verən müxtəlif iqlim növləri vardır. Ölkənin əhalisi doqquz milyondan bir az çoxdur.

İstənilən ölkənin müasir tarixi üçün başlanğıc nöqtəsi seçmək istər-istəməz dəyişkəndir, amma rəsmi tarixlər Azərbaycanın yaranışını Paleolit dövrünə və Azıx mağarasında tapılmış daş alətlər və Neandertal insanın qalıqlarının tapılmasına aparır. Azərbaycanda Bürünc dövründən qalma əşyalar tapılmışdır. Bakıdan cənuba doğru qısa yol üstündə yerləşən və hazırda UNESCO Dünya Mədəniyyət Mirası olan Qobustanda 10,000 il yaşı olan qayaüstü təsvirlər vardır.

Müasir Azərbaycan ərazisinin bir hissəsi EƏ 900-700-cü illərdə böyük və qüdrətli dövlət, altıncı əsrdə Atropatena (Od-saxlayanlar Ölkəsi) adlı yeni dövlətin yaranması ilə Əhəmənilər dövlətinin bir hissəsi olan Midiya dövlətinə daxil olub. Ölkənin əsas dini Zərdüştlük olub. Atropatena əvvəl Makedoniyalı İskəndərə, sonra isə Selevkilər İmperiyasına tabe olub. Eramızdan əvvəl təxminən üçüncü əsrdə müstəqil yerli Qafqaz Albaniyası Krallığı yaranmışdır.

Qafqaz Albaniyası əvvəl Romalılar və Partların idarəsi altında olmuş, sonra isə 252-ci ildə Sasanilərdən asılı bir ölkəyə çevrilmişdir. Dördüncü əsrdə Xristyan dini rəsmi olaraq dövlət dini kimi qəbul edilmişdir, baxmayaraq ki, ölkə əhalisinin əksəriyyəti Zərdüşt, yaxud bütpərəst olaraq qalmışdır.

7-ci əsrdə Əməvilər Xəlifəsinə vassal olanadək ərazi, Sasanilər və Bizanslıların işğallarına məruz qalmışdır. Sonrakı Abbasilər Xəlifəsinin süquta uğraması nəticəsində, on birinci əsrdə Türk Oğuzların Mərkəzi Asiyadan gəlmələrinədək ərazi yerli sülalələrin varisinə çevrilmişdir. Bu dövrdə ərazi artıq Azərbaycan olaraq tanınırdı.

Ardınca Səlcuk İmperiyasının bir hissəsi kimi ölkə, öz haqqları uğrunda güclü idarəçilər olan atabəylər (yerli hakimlər) tərəfindən idarə olunurdu. Bu dövr ərzində ölkə ərazisində, xüsusilə fars ədəbiyyatında, müxtəlif hökmdarlar tərəfindən himayəyə götürülmüş şöhrətli şair Nizami (bu günkü Azərbaycanın ikinci ən böyük şəhəri Gəncədə doğuluşdur) və Xəqani (Şirvanşahlar Sarayında mənsub olmuş) vasitəsilə saray mədəniyyəti və himayədarlıq tərəqqi edirdi. Şirvanşahlar sülaləsi bugünkü Azərbaycan ərazisində 861-1538-ci illər arasında müstəqil, yaxud vassal kimi davamlı mövcud olmuşdur. Bu sülalə incəsənət və mədəniyyətə dəstəyinə görə məşhurdur.

12-ci əsrdə Bakı tikildiyi zaman ərazi böyük sürətlə inkişaf edirdi, amma 13-14-cü əsrlərdə region əvvəlcə Monqolların, sonra isə Teymurun vassalına çevrildmişdir. 15-ci əsrdə, Bakıda yerləşən bugünkü Şirvanşahlar Sarayı kompleksini əks etdirən başqa bir oyanış baş vermişdir. 16-cı əsrin əvvəllərində

[2] Terri Sandell tərəfindən aparılımış tədqiqat və fəaliyyət nəticələrinə yazılmış bu bölüm bir ümumi müqəddimə olaraq, Azərbaycanla və onun tarixi inkişafı ilə tanış olmayanlara ünvanlanmışdır.

Səfəvilər bir qisas işğalında Bakını tutmuş və yerli əhalini Sünnilikdən, Azərbaycanın bugünkü əsas dini təriqəti olan Şiəliyə çevrilməyə məcbur etmişdir.

Region, Səfəvilərdən sonra müxtəlif İran sülalələri əsarəti altında olmuşdur ki, burada da müxtəlif özünü idarə edən xanlıqlar mövcud idi. Bu xanlıqlar Mərkəzi Asiya ilə Avropa arasındakı ticarət əlaqələrini idarə edirdilər. XVIII əsrdə Rus İmperiyasının cənuba doğru genişlənməsi ilə 1722-ci ildən 1735-ci ilədək Bakı da daxil olmaqla Xəzərsahili ərazilər imperiyanın nəzarəti altına keçdi. İki Rus-Fars müharibəsi (1796 və 1804-13) nəticəsində xanlıqların 1813-cü ildə Rus İmperiyasına qatılmasına şərait yaratdı. Rusiya, İrandan aldıqları Qafqazdakı bu və digər ərazi genişlənmələrini 1826-1828-ci ilin Rus-Fars müharibəsindəki mövqeyi ilə daha da möhkəmlətdi. Azərbaycanın Şimal hissəsi Rusiyaya, Cənub hissəsi isə İrana qatıldı. Beləliklə bu gün İranda Azərbaycan əsilli təxminən 15 milyon nəfər yaşayır.

Rus İmperiyasının bir hissəsi olaraq, ərazi iki quberniyaya - Yelizavetpol (Gəncə) və Şamaxı quberniyalarına bölünmüşdür. 1858-ci ildə Şamaxı əyalətinin paytaxtı Bakıya köçürülmüşdür.

Bakı öz üstünlüyünü 1870-ci ildə kütləvi neft kəşfi nəticəsində sığortalamışdır. Bu hadisə şəhərə nəhəng dəyişiklik, (arasında Nobel və Rotşild qardaşları olmaqla) xarici sərmayələr, inkişaf və Birinci Dünya Müharibəsinədək davam edən iqtisadi dirçəliş gətirmişdir. Fəqət, 1905-ci il ərəfəsində Azərbaycanlılar ilə Ermənilər arasında nümayişlər də daxil olmaqla, sosial gərginlik və etnik münaqişə başlayırdı. "Qara qızıl" dirçəlişi zamanı Rus İmperiyasından və xaricdən 10,000-250,000 sayda insanın kütləvi immiqrasiyası nəticəsində Bakı əhalisinin artımına səbəb olmuşdur. Sosial dəyişikliyə ziyalılar və orta təbəqənin yaranması, həmçinin yüksək dərəcədə kasıbçılığın mövcudluğu aid idi.

Siyasi və milliyyətçi şüur artaraq və Rus İmperiyasının süqutu zamanı, Gürcüstan və Ermənistanla birgə Transqafqaziya Respublikası yaradılması üçün edilmiş cəhddəki uğursuzluqdan sonra 1918-ci ildə Gəncədə müstəqil Azərbaycan respublikası bəyan edilmişdir. Bolşevik və Erməni Daşnaklarının (Osmanlı İmperiyasında Ermənilərin vəziyyətini yaxşılaşdırmağa çalışan partiya), Britaniya işğalçı qüvvəsinin, Osmanlı və Azərbaycanlı ordular alyansının və yenidən Britaniyanın qısamüddətli idarəçiliyi səbəbindən Bakıda durumsuzluq hökmranlıq edirdi. 1918-ci ilin sonlarında Osmanlı İmperiyası təslim oldu və ilin sonunda Azərbaycan dünyəvi respublikaya çevrildi.

1920-ci ildə bu yeni respublika Qızıl Ordu tərəfindən işğal edildi və Sovet Sosialist Respublikası elan edildi. 1922-ci ildə Gürcüstan və Ermənistanla birgə Transqafqaziya Sosialist Federativ Sovet Respublikasının bir hissəsinə çevrildi və bu varlıq 1936-cı ildə hər üç respublikanın ayrıca Sovet Sosialist Respublikasına çevrilməsinədək davam etdi. Azərbaycanın tarixi, 1930-cu illərdə intelligensiya və partiya aktivistlərinin təmislənməsi də daxil olmaqla, Sovetlər Birliyində olan digər ölkələrin yaşadıqları taleyi yaşadı.

1960-cı ilin sonunda Heydər Əliyev, 1987-ci ildə Qorbaçov tərəfindən kənarlaşdırılmasınadək, Azərbaycan Kommunist Partiyasının Baş Katibi seçilmişdir. Müstəqillikdən sonra o, 1993-2003 illərdə on il Prezident olaraq xidmət etmişdir, sonrakı dövrdə isə onun oğlu, hazırki Prezident onun davamçısı olmuşdur.

Azərbaycanın müstəqilliyi 1991-ci ildə Sovetlər Birliyinin dağılması kontekstində gəldi, amma bu hadisəni 1990-cı ilin əvvəlində Sovet ordusu tərəfindən 132 nümayişçini öldürülməsi kimi güclü iğtişaş qabaqlamışdır. Müstəqilliyin ardınca, Heydər Əliyev presidentliyi tərəfindən təyin edilmiş avtoritar stabillikdən əvvəl ölkədə, Qarabağdakı vəziyyətə qoşulan və Azərbaycan ərazisinin 1/5-nin Erməni işğalı ilə nəticələnən daxili siyasi hərc-mərclik baş vermişdir. O vaxtdan etibarən Azərbaycan, xüsusilə Bakı, mədəniyyət infrastrukturuna geniş sərmayələr də daxil olmaqla, sürətlə və təəssüratlandıracaq dərəcədə inkişaf edərək iqtisadi cəhətdən güclü yüksəlmişdir.